RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 153 (10173) 26 avqust 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya



Hörmətli Mehriban Arif qızı!

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, rifah və məsul dövləti vəzifənizdə uğurlar arzulayıram. İlham Heydər oğluna və bütün ailə üzvlərinizə səmimi salamlarımı çatdırmağınızı xahiş edirəm.

*Hörmətlə,*

***Vladimir PUTİN,***
***Rusiya Federasiyasının Prezidenti***

## Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya

Hörmətli Mehriban Arif qızı!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Sizin vətənpərvərliyiniz və Azərbaycana fədakarcasına xidmətiniz, ölkənin inkişafına dair əsas məsələlərə diqqətiniz və töhfəniz hörmət və heyranlıq hissləri doğurur.

Belarusda Sizin Minsk ilə Bakı arasında strateji tərəfdaşlığın möhkəmlənməsinə, həmçinin münasibətlərimizin haqlı olaraq əsl dostluq nümunəsi hesab oluna biləcəyi etimad ab-havasının və qarşılıqlı anlaşmanın dəstəklənməsinə verdiyiniz töhfəni yüksək qiymətləndirirlər.

Əminəm ki, Sizin səmərəli fəaliyyətiniz birgə layihələrin həyata keçirilməsinə, Belarus ilə Azərbaycan arasında açıq və konstruktiv dialoq ruhunda əməkdaşlığın bundan sonra da genişləndirilməsinə kömək edəcək.

Hörmətli Mehriban Arif qızı, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, rifah və yeni nailiyyətlərin əldə olunmasında uğurlar arzulayıram.

*Hörmətlə,*

***Aleksandr LUKAŞENKO,***
***Belarus Respublikasının Prezidenti***

# Strateji tərəfdaşlıq, müttəfiqlik və əbədi dostluq



## Azərbaycan-Özbəkistan əlaqələri Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarının geosiyasi və geoiqtisadi bağlantısı üçün əhəmiyyətli rol oynayır

Ölkələrimiz arasında əsrlərdən bəri mövcud olan tarixi, mədəni və mənəvi bağlar bu gün, sadəcə, bəyanatlarla deyil, konkret hüquqi mexanizmlər, iqtisadi layihələr və institutlaşmış strateji tərəfdaşlıqla möhkəmlənir. Bakı və Daşkənd arasında inkişaf edən münasibətlər strateji tərəfdaşlıq, müttəfiqlik və əbədi dostluq məntiqi üzrə uğurla irəliləyir. 2024-cü ilin avqustunda Daşkənddə imzalanmış Müttəfiqlik münasibətləri haqqında müqavilədən sonra bu ilin 23 avqustunda Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri zamanı imzalanan "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əbədi dostluq haqqında Müqavilə" əlaqələrin keyfiyyətcə yeni və ən yüksək mərhələsini özündə ehtiva edir.

Müqavilə iki dövlətin beynəlxalq hüququn hamılıqla tanınmış prinsiplərini rəhbər tutaraq münasibətlərini əbədi dostluq, qarşılıqlı etimad və müttəfiqlik əsasında qurduğunu təsbit edir. Tərəflər bir-birinin suverenliyinə, təhlükəsizliyinə və ərazi bütövlüyünə zərər vuran hər hansı blok və ya ittifaqlarda iştirak etməməyi, öz ərazilərinin üçüncü ölkələr və ya qruplar tərəfindən digər tərəfin dövlət maraqlarına qarşı istifadəsinə yol verməməyi öhdələrinə götürürlər. Bu sənəd böyük güclərin rəqabəti fonunda iki ölkənin regional sabitlik amili kimi çıxış etməsini təmin edir. Özbəkistan hər zaman Azərbaycanın haqq işini dəstəkləyib. Daşkənddə Azərbaycan və Özbəkistan Ali Dövlətlərarası Şuranın 3-cü iclası zamanı bu xüsusi məqama diqqətçəkən ölkəmizin başçısı qeyd edib ki, biz ikitərəfli formatda, iştirak etdiyimiz bütün beynəlxalq təşkilatlarda həmişə bir-birimizi dəstəkləyirik: "Bu, avtomatik rejimdə baş verir".

Əbədi dostluq haqqında müqavilədə təkcə təhlükəsizlik sahəsi ilə bağlı deyil, ölkələrimizin siyasi, iqtisadi, mədəni əlaqələri barədə də mühüm məsələlər əksini tapıb.

5

## 2026-cı ildə Bakı şəhərində keçiriləcək "Formula-1" yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Müəyyən edilsin ki, 2026-cı ildə Bakı şəhərində keçiriləcək "Formula-1" yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn və bu sərəncamın 2-ci hissəsində qeyd edilən sənədlərdən hər hansı birini təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2026-cı il avqustun 25-dən sentyabrın 30-dək Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında viza ala bilərlər.

2. Aşağıdakı sənədlərdən biri viza verilməsi üçün əsas hesab edilsin:

2.1. "Formula-1" yarışlarının beynəlxalq təşkilatçıları olan "Formula One Management Limited" Şirkətinin və Beynəlxalq Avtomobil Federasiyasının müvafiq qaydalarına uyğun olaraq akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı və ya akkreditasiyadan keçməni təsdiq edən digər sənəd;

2.2. Bakı Şəhər Halqası Əməliyyat Şirkətində akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı;

2.3. 2026-cı ildə Bakı şəhərində keçiriləcək "Formula-1" yarışına bilet, o cümlədən elektron bilet və ya biletin əldə olunmasını təsdiq edən sənəd.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi:

3.1. 2026-cı ildə Bakı şəhərində keçiriləcək "Formula-1" yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə "Formula One Management Limited" Şirkətinə, Beynəlxalq Avtomobil Federasiyasına, Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasına və xarici ölkələrin müvafiq orqanlarına məlumat versin;

3.2. 2026-cı ildə Bakı şəhərində keçiriləcək "Formula-1" yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə məlumatın nazirliyin, eləcə də Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti Azərbaycan Respublikasına uçuşlar həyata keçirən aviasiya şirkətlərinə 2026-cı ildə Bakı şəhərində keçiriləcək "Formula-1" yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 avqust 2026-cı il*

## Laçında Azərbaycanla Ermənistan arasında elektrik enerjisinin idxalı və ixracı imkanları müzakirə edilib



Avqustun 25-də Laçın şəhərində Azərbaycanın Energetika Nazirliyinin və "AzərEnerji" ASC-nin, Ermənistanın Ərazi İdarəetmə və İnfrastruktur Nazirliyinin və "Elektrik Enerjisi Sisteminin Operatoru" şirkətinin nümayəndələrinin işgüzar görüşü keçirilib.

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, görüşdə tərəflər iki ölkə arasında elektrik enerjisinin idxalı və ixracı imkanlarını, eləcə də bu məqsədlə iki ölkənin enerji infrastrukturlarının dövlət sərhədində əlaqələndirilməsinin mümkün variantlarını müzakirə ediblər.

## LAÇIN: Zəfər və quruculuq meydanı

2020-ci ildə Azərbaycan Respublikasının Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Şanlı Ordumuzun Vətən müharibəsində əldə etdiyi tarixi Qələbə Laçının taleyində də mühüm dönüş yaratdı. Rayonun azad edilməsi Azərbaycanın hərbi-strateji üstünlüyünün təmin olunmasında mühüm rol oynadı.




2022-ci il avqustun 26-da Laçın şəhəri, Zabux və Sus kəndləri də Azərbaycan nəzarətinə keçdi. Beləliklə, Laçının işğaldan azad edilməsi ilə tarixi ədalət bərpa olundu və rayonun uzun illər davam edən işğalına son qoyuldu.

Dövlət başçısının 31 iyul 2023-cü il tarixli sərəncamı ilə işğaldan azad edilmiş ərazilərdə şəhər günlərinin təsis edilməsi də tarixi yaddaşın qorunması baxımından mühüm addım oldu. Həmin sərəncama əsasən, hər il avqustun 26-sı "Laçın Şəhəri Günü" kimi qeyd edilir.

3

## Daha çox turistdən daha geniş turizmə

Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında turizmin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" məhz bu sadalananların fonunda ölkənin turizm sektorunun qarşıdakı dövr üçün inkişaf istiqamətlərini müəyyənləşdirir. Sənəddə turizm ölkə iqtisadiyyatının mühüm istiqamətlərindən biri kimi qiymətləndirilir. Eləcə də regionlarda yeni imkanlar yaratması, məşğulluğu artırması və neftdənkənar sahənin inkişafını sürətləndirməsi hədəflənir. Turizmin Azərbaycanın beynəlxalq səviyyədə tanıdılmasında mühüm rol oynadığı vurğulanır.



Sənədin ilk hissəsindən aydın görünür ki, Azərbaycanın yeni turizm siyasəti yalnız turist sayının artırılmasına hesablanmayıb. Burada əsas məqsəd daha rəqabətqabiliyyətli, dayanıqlı, rəqəmsal və şaxələndirilmiş turizm modeli formalaşdırmaqdır. Dünya turizmində müşahidə olunan yeni meyillər göstərir ki, müasir turist artıq yalnız istirahət üçün məkan axtarmır.

7

## Rusiyadan Ermənistana Azərbaycandan tranzitlə növbəti tədarük həyata keçirilib



Rusiyadan Ermənistana Azərbaycandan tranzit keçməklə növbəti tədarük həyata keçirilib.

AZƏRTAC xəbər verir ki, 14 vaqondan ibarət, çəkisi 976 ton olan buğda və 1 vaqondan ibarət, çəkisi 65 ton olan taxta avqustun 25-də Biləcəri stansiyasından Böyük Kəsik istiqamətinə göndərilib.

Qeyd edək ki, indiyədək Rusiyadan Ermənistana Azərbaycandan tranzit keçməklə 50 min tondan çox taxıl, 9 min tona yaxın gübrə, 1414 ton propan, 133 ton alüminium, 1114 ton kömür və 67 ton taxta göndərilib.

Eyni zamanda indiyədək Azərbaycandan Ermənistana 15 min tona yaxın dizel, 5 min tona yaxın Aİ-92 və Aİ-95 benzini ixrac olunub.

azerbaijan-news.az

# "Dənizkənarı Bulvar İdarəsi" və "Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi" publik hüquqi şəxslərin fəaliyyəti ilə bağlı bəzi məsələlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, bəzi dövlət qurumlarının fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. "Dənizkənarı Bulvar İdarəsi" publik hüquqi şəxs "Dənizkənarı Bulvar" Qapalı Səhmdar Cəmiyyətinə çevrilmə yolu ilə yenidən təşkil edilsin.

2. Müəyyən edilsin ki:

2.1. "Dənizkənarı Bulvar" Qapalı Səhmdar Cəmiyyəti (bundan sonra - Cəmiyyət) Bakı şəhərində yerləşən Dənizkənarı Milli Parkın mühafizəsi, onun ərazisinə nəzarət və onun idarə edilməsi, saxlanılması, cari fəaliyyətinin və perspektiv inkişafının təmin edilməsi sahəsində fəaliyyət göstərən dövlətə məxsus kommersiya hüquqi şəxsidir;

2.2. Bakı şəhərində yerləşən Dövlət Bayrağı Meydanının və Dövlət Bayrağı Muzeyinin mühafizəsi, onların ərazisinə nəzarət, onların idarə edilməsi, saxlanılması, cari fəaliyyətinin və perspektiv inkişafının təmin edilməsi Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi tərəfindən həyata keçirilir;

2.3. Cəmiyyət "Dənizkənarı Bulvar İdarəsi" publik hüquqi şəxsin (bundan sonra - İdarə) hüquqi varisidir və onun hüquq və öhdəlikləri, habelə əmlakı (bu Fərmanın 2.4-cü bəndi nəzərə alınmaqla) Cəmiyyətə keçir;

2.4. İdarənin Bakı şəhərində yerləşən Dövlət Bayrağı Meydanının və Dövlət Bayrağı Muzeyinin mühafizəsi, onların ərazisinə nəzarət, onların idarə edilməsi və saxlanılması ilə bağlı hüquq və öhdəlikləri, habelə əmlakı Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinə keçir;

2.5. Cəmiyyətin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün sədr də daxil olmaqla 3 (üç) üzvdən ibarət Müşahidə Şurası yaradılır;

2.6. Cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi 3 (üç) üzvdən - sədr və onun 2 (iki) müavinindən ibarət İdarə Heyəti həyata keçirir;

2.7. Cəmiyyətin nizamnamə kapitalı bu Fərmanın 2.3-cü bəndinə uyğun olaraq ona keçən əmlak hesabına formalaşır;

2.8. Cəmiyyət "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı günədək İdarə fəaliyyətini davam etdirir.

3. Cəmiyyətin ümumi yığıncağının səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

3.1. Azərbaycan Respublikasının Prezidentinə:

3.1.1. Cəmiyyətin yenidən təşkili və ləğvi;

3.1.2. Cəmiyyətin idarəetmə orqanlarının yaradılması;

3.1.3. Cəmiyyətin Müşahidə Şurası sədrinin və digər üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

3.1.4. Cəmiyyətin İdarə Heyəti sədrinin və onun müavinlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

3.2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

3.2.1. Cəmiyyətin nizamnaməsinin təsdiqi və nizamnamə kapitalının miqdarının müəyyən olunması, onlarda dəyişiklik edilməsi;

3.3. Müşahidə Şurasına:

3.3.1. bu Fərmanın 3.1-ci və 3.2-ci bəndlərində qeyd edilənlər istisna olmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə səhmdarların ümumi yığıncağının səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. aşağıdakılarla bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

4.1.1. bu Fərmanın 1-ci hissəsi və 2.2-ci bəndi nəzərə alınmaqla, normativ hüquqi aktların təkmilləşdirilməsi;

4.1.2. Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş müvafiq hüquqi faktların qeydiyyatı ilə bağlı xidmətlər göstərən (hüquqi hərəkətləri həyata keçirən) əməkdaşlarının dövlət qulluqçusu statusunun ləğvi;

4.2. aşağıdakı normativ hüquqi aktları iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

4.2.1. Cəmiyyətin nizamnaməsini;

4.2.2. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təklifləri əsasında bu Fərmanın 2.2-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi tərəfindən nəzarət olunan ərazinin hüdudlarını və həmin ərazidə yerləşən obyektlərin siyahısını;

4.3. bu Fərmanın 2.4-cü bəndinə uyğun olaraq, Dövlət Bayrağı Meydanının və Dövlət Bayrağı Muzeyinin bütün əmlakının Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin balansına verilməsini iki ay müddətində təmin etsin;

4.4. Cəmiyyət "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində İdarənin balansında olan əmlakın (bu Fərmanın 2.4-cü bəndi nəzərə alınmaqla) Cəmiyyətin balansına verilməsi ilə bağlı zəruri tədbirlər görülməsini təmin etsin;

4.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi "Dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 avqust tarixli 489 nömrəli Fərmanının 3.7-ci bəndinə uyğun olaraq, Cəmiyyətin strukturunun, ştat vahidlərinin və əməkhaqqı sisteminin maliyyə ekspertizasını həyata keçirsin və onların optimallaşdırılması üçün tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 avqust 2026-cı il*

# Azərbaycanda ipəkçiliyin və xalçaçılığın inkişafı, milli sənətkarlıq irsinin qorunması və təbliği üzrə əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

İpəkçilik və xalçaçılıq Azərbaycan xalqının zəngin tarixi-mədəni irsində mühüm yer tutan, kənd təsərrüfatı və yüngül sənaye sahələri ilə sıx əlaqədə formalaşmış ənənəvi sənətkarlıq sahələridir. Bu sahələrin inkişafı qeyri-neft-qaz sektorunun şaxələndirilməsinə, regionlarda məşğulluğun artırılmasına, yerli istehsalın və ixrac potensialının genişləndirilməsinə, habelə milli mədəni irsin qorunmasına və təbliğinə mühüm töhfə verir.

İpəkçiliyin və xalçaçılığın davamlı inkişafı məqsədilə idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, istehsal zəncirinin bütün mərhələləri üzrə əlaqələndirmənin gücləndirilməsi və xammal bazasının möhkəmləndirilməsi zəruridir. Bununla yanaşı, məhsulların keyfiyyətinin yüksəldilməsi, sənətkarlıq ənənələrinin və toxuculuq məktəblərinin qorunub inkişaf etdirilməsi, elmi-tədqiqat fəaliyyətinin və peşəkar kadr hazırlığının genişləndirilməsi, habelə yerli məhsulların xarici bazarlarda rəqabət qabiliyyətinin artırılması istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ipəkçiliyin və xalçaçılığın vahid idarəetmə əsasında inkişaf etdirilməsi, bu sahələrin iqtisadi səmərəliliyinin və rəqabət qabiliyyətinin artırılması, habelə milli sənətkarlıq irsinin qorunması və təbliği məqsədilə **qərara alıram:**

1. "Azərxalça" Açıq Səhmdar Cəmiyyəti (bundan sonra - Cəmiyyət) "Azəripək" Açıq Səhmdar Cəmiyyətinin ona qoşulması formasında yenidən təşkil edilsin.

2. Cəmiyyət tərəfindən baramaçılığın damazlıq işinin təşkili məqsədilə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki Qax Rayon Damazlıq İpəkçilik Stansiyası əmlakı ilə birlikdə Cəmiyyətin tabeliyinə verilsin.

3. "Azəripək" Açıq Səhmdar Cəmiyyətinin dövlətə məxsus səhmlərinin özəlləşdirilməsi prosesi dayandırılsın.

4. Müəyyən edilsin ki:

4.1. Cəmiyyət ölkədə ipəkçiliyin və xalçaçılığın inkişafını, təbliğini və təşviqini, bu sahədə istehsal, emal, satış və ixrac fəaliyyətinin həyata keçirilməsini, xammal bazasının inkişaf etdirilməsini, milli sənətkarlıq irsinin qorunmasını və bu sahələrdə fəaliyyətin vahid mərkəzdən əlaqələndirilməsini təmin edən kommersiya hüquqi şəxsidir;

4.2. Cəmiyyət "Azəripək" Açıq Səhmdar Cəmiyyətinin hüquqi varisidir, onun bütün hüquqları və öhdəlikləri, habelə əmlakı Cəmiyyətə keçir;

4.3. Cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi 3 (üç) üzvdən - sədr və onun 2 (iki) müavinindən ibarət İdarə Heyəti həyata keçirir.

5. Cəmiyyətin ümumi yığıncağının səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

5.1. Azərbaycan Respublikasının Prezidentinə:

5.1.1. Cəmiyyətin yenidən təşkili və ləğvi;

5.1.2. Cəmiyyətin icra orqanının yaradılması;

5.1.3. Cəmiyyətin İdarə Heyəti sədrinin və onun müavinlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

5.2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

5.2.1. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Cəmiyyətin nizamnaməsinin təsdiqi, nizamnamə kapitalının miqdarının müəyyən edilməsi və onlarda dəyişiklik edilməsi;

5.3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə:

5.3.1. bu Fərmanın 5.1-ci və 5.2-ci bəndlərində qeyd edilənlər istisna olmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq ali idarəetmə orqanının müstəsna səlahiyyətinə aid edilmiş məsələlərin Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həyata keçirilməsi;

5.3.2. Azərbaycan Respublikasının normativ hüquqi aktları, eləcə də Cəmiyyətin nizamnaməsi ilə ümumi yığıncağa həvalə edilən digər səlahiyyətlərin həyata keçirilməsi.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

6.1. aşağıdakılar barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

6.1.1. üç ay müddətində bu Fərmanın 1-ci, 2-ci və 5-ci hissələri nəzərə alınmaqla normativ hüquqi aktların təkmilləşdirilməsi;

6.1.2. altı ay müddətində ölkədə istehsal olunan yaş baramanın daxili emalının genişləndirilməsi, ipəkçilik üzrə tam istehsal zəncirinin formalaşdırılması və yüksək əlavə dəyər yaradan ipək məhsullarının istehsalının artırılması;

6.2. Cəmiyyətin yeni nizamnaməsini, strukturunu və nizamnamə kapitalının miqdarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla üç ay müddətində təsdiq etsin;

6.3. "Azəripək" Açıq Səhmdar Cəmiyyətinin əmlakının altı ay müddətində Cəmiyyətin balansına verilməsi ilə bağlı zəruri tədbirlər görsün;

6.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

7. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

7.1. bu Fərmanın 1-3-cü hissələri nəzərə alınmaqla, Cəmiyyətin nizamnamə kapitalının miqdarına dair Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

7.2. Cəmiyyətin "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınması üçün tədbirlər görsün;

7.3. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

8. Cəmiyyət xalçaçılıq, baramaçılıq və ipəkçilik ənənələrinin Azərbaycan Respublikasında və Azərbaycan Respublikasının hüdudlarından kənarda tanıdılması, müvafiq məhsulların brendləşdirilməsi və ixracının təşviqi ilə bağlı təkliflərini Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi və Şəki Şəhər İcra Hakimiyyəti ilə razılaşdırmaqla hazırlayıb altı ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

9. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nın 2.2-ci bəndinə əsasən yaradılmış Aqrar Subsidiya Şurası həmin Fərmanla təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"na uyğun olaraq ölkədə istehsal edilərək tədarükçülərə təhvil verilən yaş baramaya və tut bağlarının salınmasına görə verilən subsidiyanın məbləğinə yenidən baxsın.

10. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn tədbirlərin maliyyələşdirilməsi üçün zəruri maliyyə vəsaitinin ayrılmasını təmin etsin.

11. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Cəmiyyət bu Fərmanın 1-ci və 3-cü hissələrinin icrasının təmin edilməsi məqsədilə "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq zəruri tədbirlər görsünlər.

12. "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 5 may tarixli 2032 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 5, maddə 901 (Cild I) 3-cü hissəsi aşağıdakı redaksiyada verilsin:

"3. Cəmiyyət ölkədə ipəkçilik və xalçaçılıq sahələrinin inkişafını, təbliğini və təşviqini, həmin sahələr üzrə istehsal, emal, satış və ixrac fəaliyyətinin həyata keçirilməsini, xammal bazasının inkişaf etdirilməsini, milli sənətkarlıq irsinin qorunmasını və bu sahələrdə fəaliyyətin vahid mərkəzdən əlaqələndirilməsini təmin edən kommersiya hüquqi şəxsidir.".

13. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 29 oktyabr tarixli 2979 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1156 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin özəlləşdirilməyə açıq elan edilən müəssisələrinin Siyahısı"nın 3-cü hissəsi ləğv edilsin.

14. Cəmiyyət "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı günədək bu Fərmanın 1-ci hissəsində göstərilən açıq səhmdar cəmiyyətləri öz fəaliyyətini davam etdirsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 avqust 2026-cı il*

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2026-cı ilin sentyabr ayında vətəndaşların qəbulu

# CƏDVƏLİ

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri**<br>Nağdəliyev Zeynal Səfər oğlu | 1 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri**<br>Ələsgərov Fuad Murtuz oğlu | 2,16 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri**<br>Seyidov Fərid Mirmufid oğlu | 3 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi**<br>Həsənov Altay Tofiq oğlu | 4,11,25 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**<br>İsmayılov Süleyman Abbas oğlu | 4 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri**<br>Əmirov Natiq Ərziman oğlu | 7 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri**<br>Əliyeva Fərəh Şirməmməd qızı | 8 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri**<br>Həsənov Kərəm Əvəz oğlu | 9 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri**<br>Mövsümov Şahmar Arif oğlu | 10 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri**<br>Hacıyev Hikmət Fərhad oğlu | 11 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri**<br>Məmmədəliyev Yusuf Ülfət oğlu | 14 |
| **Azərbaycan Respublikası Prezidentinin Mətbuat katibi**<br>Səttarov Orxan Rəcəb oğlu | 15 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 15 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 15 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri**<br>Məcidov Tələt Tahir oğlu | 17 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri**<br>Vəliyev Ədalət Məqsəd oğlu | 18 |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Hüseynov Emin Zamin oğlu | 21 |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Məmmədov Məsim Əhməd oğlu | 22 |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Kərimov Aydın Zöhrab oğlu | 22 |
| **Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Hacıyev Bəşir Qüdrət oğlu | 23 |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Yusubov Elçin Mustafa oğlu | 24 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri**<br>Kərimov Gündüz Hacı oğlu | 25 |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Hacıyev Vahid Rasim oğlu | 25 |
| *** | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi**<br>Usubov Ramil İdris oğlu | 28 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev küçəsi, 79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi – 1111.**

# "Azərbaycan Respublikasının Qaşqaçay, Elbəydaş və Ağduzdağ filiz yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, işlənməsi və istismarı ilə əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 29 may tarixli 2665 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Qaşqaçay, Elbəydaş və Ağduzdağ filiz yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, işlənməsi və istismarı ilə əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 29 may tarixli 2665 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 5, maddə 502 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında və preambulada "Qaşqaçay, Elbəydaş və Ağduzdağ filiz yataqlarının" sözləri "Elbəydaş filiz yatağının" sözləri ilə əvəz edilsin;

1.2. 1-ci hissədə "Qaşqaçay" sözü "Elbəydaş" sözü ilə əvəz edilsin və həmin hissədən ", Elbəydaş və Ağduzdağ filiz yataqları "Artvin Maden A.Ş." şirkətinə" sözləri çıxarılsın;

1.3. 3.2-ci bənddə "yataqların" sözü "yatağın" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə birlikdə "Azərbaycan Respublikasının Qaşqaçay, Elbəydaş və Ağduzdağ filiz yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, işlənməsi və istismarı ilə əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 29 may tarixli 2665 nömrəli Sərəncamının 2.1-ci bəndinə uyğun olaraq imzalanmış müqavilələrə xitam verilməsi və ya onlarda dəyişiklik edilməsi ilə bağlı məsələləri həll etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 avqust 2026-cı il*

# Laçın Şəhəri Günü



# LAÇIN: Zəfər və quruculuq meydanı

**Azərbaycanın dövlətçilik tarixində Laçın rayonu həm əlverişli coğrafi mövqeyi, həm də mühüm siyasi-strateji əhəmiyyəti ilə seçilən ərazilərdən biridir. Qədim yaşayış məskənlərindən biri olan Laçın 1923-cü ildə şəhər statusu almış, 1930-cu ildə isə inzibati rayon kimi təşkil edilmişdir.**

1992-ci il mayın 18-də Laçının Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi Azərbaycan tarixinin ən faciəli hadisələrindən biri kimi yadda qaldı. Rayonun dinc əhalisi etnik təmizləməyə məruz qaldı, yüzlərlə insan öldürüldü və itkin düşdü. İşğal nəticəsində yaşayış məntəqələri ilə yanaşı, çoxsaylı sosial obyektlər, təhsil və səhiyyə müəssisələri, sənaye və mədəniyyət ocaqları dağıdıldı. Rayon ərazisində yerləşən qiymətli tarixi-mədəni irs nümunələri də vandalizmə məruz qaldı.

Laçının işğalı Azərbaycan üçün sonrakı faciələrin dərinləşməsinə də şərait yaratdı. Bunun əsas səbəblərindən biri rayonun Ermənistanla Qarabağ arasında mühüm nəqliyyat və strateji əlaqə xətti üzərində yerləşməsi idi. Laçının işğalı nəticəsində Ermənistanla Qarabağ arasında birbaşa və maneəsiz əlaqə yaradıldı. Bu isə Ermənistanın işğal olunmuş ərazilərə canlı qüvvə və hərbi texnika ötürməsini asanlaşdıraraq sonrakı işğalçılıq siyasətinin həyata keçirilməsinə imkan verdi.

İşğal illərində Laçın yalnız hərbi məqsədlər üçün deyil, həm də siyasi və demoqrafik siyasətin həyata keçirildiyi əraziyə çevrildi. Ermənistan beynəlxalq hüquq normalarını və Cenevrə konvensiyalarının tələblərini pozaraq burada qanunsuz məskunlaşdırma siyasəti apardı. Coğrafi adların dəyişdirilməsi, təbii sərvətlərin istismarı və rayonun iqtisadi potensialının talan edilməsi bu siyasətin əsas istiqamətlərindən idi. Suriyadan və digər ölkələrdən erməniəsilli ailələrin Laçın ərazisinə köçürülməsi isə rayonun demoqrafik tərkibinin süni şəkildə dəyişdirilməsinə yönəlmiş addım idi. Bütün bunlar işğalın möhkəmləndirilməsi məqsədilə həyata keçirilən məqsədyönlü siyasətin göstəricisi idi.

2020-ci ildə Azərbaycan Respublikasının Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Şanlı Ordumuzun Vətən müharibəsində əldə etdiyi tarixi Qələbə Laçının taleyində də mühüm dönüş yaratdı. Rayonun azad edilməsi Azərbaycanın hərbi-strateji üstünlüyünün təmin olunmasında mühüm rol oynadı.

2022-ci il avqustun 26-da Laçın şəhəri, Zabux və Sus kəndləri də Azərbaycan nəzarətinə keçdi. Beləliklə, Laçının işğaldan azad edilməsi ilə tarixi ədalət bərpa olundu və rayonun uzun illər davam edən işğalına son qoyuldu.

Dövlət başçısının 31 iyul 2023-cü il tarixli sərəncamı ilə işğaldan azad edilmiş ərazilərdə şəhər günlərinin təsis edilməsi də tarixi yaddaşın qorunması baxımından mühüm addım oldu. Həmin sərəncama əsasən, hər il avqustun 26-sı "Laçın Şəhəri Günü" kimi qeyd edilir. Bu tarix yalnız Laçının azadlığının deyil, həm də onun doğma sakinlərinə qovuşmasının, yenidən qurulmasının və əzəli Azərbaycan torpağı kimi dirçəlməsinin rəmzidir. Prezident İlham Əliyevin "Biz öz doğma torpaqlarımızı işğalçılardan azad edəndən sonra Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik" fikri bu gün azad edilmiş ərazilərdə həyata keçirilən quruculuq siyasətinin əsas mahiyyətini əks etdirir. Laçında aparılan genişmiqyaslı işlər də bu strateji məqsədin mühüm tərkib hissəsidir.

Bu gün Laçın Azərbaycanın işğaldan azad edilmiş əraziləri sırasında sürətlə yenidən qurulan və dirçələn şəhərlərdən biridir. "Böyük Qayıdış" Dövlət Proqramı çərçivəsində Laçına ilk sakinlərin qayıdışı rayonun həyatında yeni mərhələnin başlanğıcını qoydu. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə burada genişmiqyaslı infrastruktur layihələri həyata keçirilir, işğalın vurduğu ağır yaralar aradan qaldırılır və Laçın müasir şəhərsalma prinsipləri əsasında yenidən formalaşdırılır.

Laçın rayonu təkcə strateji mövqeyi ilə deyil, həm də enerji imkanları ilə seçilir. Rayon ərazisində ümumi gücü 65,5 MVt, illik 194 milyon kilovat-saat istehsal potensialı olan 9 su-elektrik stansiyası fəaliyyət göstərəcək.

2021-ci ildə Güləbird SES istifadəyə verilmiş, daha sonra "Ağbulaq", "Mişni", "Alxaslı" kimi stansiyalar bərpa olunmuşdur. 2025-ci il mayın 27-də "AzərEnerji" "Aşağı Malıbəyli" və "Mirik" su-elektrik stansiyalarının (SES) açılışı olub. Hər iki stansiya Həkəri çayının sağ qolu olan Zabux çayının Laçın rayonunun Malıbəyli və Mirik kəndlərinin ərazisindən keçən hissəsində inşa edilib. 3,1 MVt gücündə "Aşağı Malıbəyli" və 3,5 MVt gücündə "Mirik" su-elektrik stansiyalarında ən müasir avadanlıq quraşdırılıb, optik kabel xətləri çəkilib. Bununla da stansiyalar ölkənin enerji sisteminin mərkəzləşmiş SCADA sisteminə inteqrasiya olunub. "Aşağı Malıbəyli" və "Mirik" SES-lərdə il ərzində 20 milyon kilovat-saat "yaşıl enerji"nin istehsalı nəzərdə tutulub ki, bu da öz növbəsində 4,3 milyon kubmetr təbii qaza qənaət etməyə şərait yaradacaq, il ərzində 8 min ton karbon qazının atmosferə atılmasının qarşısını alacaq.

2026-cı il iyulun 11-də Laçında Hoçaz çayının üzərində yerləşən 14,7 meqavatlıq "Ağbulaq-1", 14,25 meqavatlıq "Ağbulaq-2" və 4 meqavatlıq "Şeylanlı" su-elektrik stansiyalarının açılışı olub. Laçın rayonunun 8-10 MVt-lıq elektrik tələbat gücü tam olaraq "yaşıl enerji" hesabına qarşılanır. Qalan enerji isə ölkə enerjisisteminə ötürülür. Hazırda ümumi gücü 10,7 MVt olan 3 yeni SES-in tikintisi davam edir və onlar bu ilin sonunadək istismara veriləcək. Laçın rayonunun 2040-cı il perspektivində elektrik tələbat gücünün 80 MVt olacağı gözlənilir. Mövcud və tikintisi planlaşdırılan SES layihələri nəzərə alınmaqla, rayon 15 il sonra da tam olaraq "yaşıl enerji" ilə təmin ediləcək.

Prezident İlham Əliyevin sərəncamı ilə inşa edilən Kəlbəcər-Laçın avtomobil yolu 75,8 kilometr uzunluğunda olacaq və mövcud marşrutla müqayisədə 32,2 kilometr daha qısa məsafə təmin edəcək. Yol üzərində 17 tunel və 23 körpünün inşası Laçının mürəkkəb relyef şəraitində müasir mühəndislik həllərinin tətbiq edildiyini göstərir.

2025-ci ilin 28 mayında istifadəyə verilən Laçın Beynəlxalq Hava Limanı Azərbaycanın mühüm strateji nailiyyətlərindən biridir. Dəniz səviyyəsindən 1700 metr yüksəklikdə yerləşən və ölkəmizdə ən yüksək aeroport olan bu hava limanı həm strateji hərbi-siyasi, həm də turizm baxımından böyük imkanlar açır. Uçuş-enmə zolağının 3 min metr uzunluqda olması istənilən tip hava gəmisinin qəbuluna şərait yaradır. Hava limanının Laçın, Şuşa və Kəlbəcər istiqamətlərinə yaxın yerləşməsi isə regionun beynəlxalq inteqrasiyasını daha da möhkəmləndirir.

Laçının bərpası vahid şəhərsalma konsepsiyası əsasında həyata keçirilir. "Laçın şəhərinin 2040-cı ilədək inkişafına dair Baş Plan"ın təsdiqlənməsi şəhərin gələcək inkişafının sistemli şəkildə qurulduğunu göstərir. Laçın şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı "15 dəqiqəlik şəhər" prinsipi əsasında formalaşdırılan urbanistik model yaşayış məhəllələri ilə sosial, təhsil, səhiyyə, mədəniyyət və xidmət obyektləri arasında əlçatanlığı təmin etməyə yönəlib. Bu yanaşma Laçının yalnız yenidən qurulan deyil, müasir şəhərsalma standartlarına uyğun inkişaf edən şəhər kimi formalaşdığını göstərir.

Laçının inkişaf modelində iqtisadi dirçəliş xüsusi yer tutur. Sənaye zonasında yaradılan mebel fabriki, prefabrik modul evlər istehsal edən müəssisə, heyvan kəsimi məntəqəsi, ayaqqabı və tikiş fabrikləri rayonun iqtisadi potensialının bərpa edildiyini göstərən konkret nümunələrdir. Laçın Aqro-Sənaye Parkında müxtəlif istiqamətlər üzrə 46 müəssisənin fəaliyyət göstərməsinin nəzərdə tutulması isə gələcəkdə rayonun istehsal və məşğulluq imkanlarının daha da genişlənəcəyinə əsas verir.

Burada diqqətçəkən məqam iqtisadi inkişafın yerli əhalinin məşğulluğu ilə əlaqələndirilməsidir. Yeni yaradılan müəssisələrdə Laçın sakinlərinin işlə təmin olunması Böyük qayıdışın sosial mahiyyətini gücləndirir.

Laçının inkişaf strategiyasında kənd təsərrüfatı və təbii resurslardan səmərəli istifadə də mühüm istiqamətdir. Heyvandarlıq və arıçılıqla yanaşı, Həkəri Balıq Təsərrüfatının yaradılması rayonun aqrar potensialının şaxələndirilməsi baxımından əhəmiyyətlidir. Bu layihələr Laçının ənənəvi təsərrüfat imkanlarının müasir istehsal modeli ilə birləşdirilməsinə xidmət edir.

Turizm istiqamətində görülən işlər də Laçının gələcək iqtisadi profilini müəyyənləşdirən amillərdəndir. "Laçın" İstirahət Kompleksinin istifadəyə verilməsi, Həkəri çayı ətrafında bulvar və istirahət məkanlarının yaradılması, kanat yolu layihəsinin həyata keçirilməsi şəhərin turizm imkanlarını genişləndirir.

Rayonun gələcək inkişafında su və enerji təhlükəsizliyi də strateji əhəmiyyət daşıyır. 11 iyul 2026-cı ildə təməli qoyulan "Həkəriçay" su anbarı layihəsi Laçının hüdudlarını aşan regional əhəmiyyətə malikdir. Layihə çərçivəsində böyükhəcmli su anbarının, uzun magistral boru kəmərinin və su-elektrik stansiyalarının yaradılması nəzərdə tutulur. Bu, həm içməli su təminatının yaxşılaşdırılmasına, həm də enerji potensialının artırılmasına xidmət edən kompleks infrastruktur layihəsidir.

Laçının yenidən qurulmasının ən mühüm nəticəsi isə insanların doğma torpaqlarına qayıdışıdır. 28 may 2023-cü ildən başlayan "Böyük qayıdış" çərçivəsində Laçın şəhərinə, Zabux, Sus və Bəylik kəndlərinə yüzlərlə ailə köçürülüb. Bu proses dövlət siyasətinin əsas mahiyyətini - insanların təhlükəsiz, müasir və ləyaqətli yaşayış şəraiti ilə doğma torpaqlarına qaytarılmasını əks etdirir.

Laçının beynəlxalq və mədəni əhəmiyyətinin artması da bu prosesin mühüm nəticələrindəndir. Şəhərin 2025-ci ildə "MDB-nin mədəniyyət paytaxtı" elan edilməsi Laçının regional mədəni əməkdaşlıq platformasında yeni mövqe qazanmasına imkan verib. Bu status şəhərin yalnız tarixi yaddaş məkanı deyil, həm də müasir mədəniyyət və humanitar əlaqələr mərkəzi kimi təqdim olunmasına şərait yaradıb.

Prezident İlham Əliyevin Laçına mütəmadi səfərləri isə bərpa prosesinin siyasi və strateji əhəmiyyətini nümayiş etdirir. 2021-ci ildən başlayaraq dövlət başçısının Laçında müxtəlif infrastruktur, enerji, sosial və iqtisadi layihələrin açılışında və təməlqoyma mərasimlərində iştirakı bu ərazilərin inkişafının dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu göstərir. Xüsusilə 2025-ci il mayın 27-də və 2026-cı il iyulun 11-də həyata keçirilən layihələr Laçının inkişafında yeni mərhələnin formalaşdığını nümayiş etdirir.

Nəticə etibarilə Laçında nəqliyyat, aviasiya, enerji, su təminatı, sənaye, kənd təsərrüfatı, turizm, təhsil, səhiyyə və mədəniyyət sahələrini əhatə edən kompleks inkişaf modeli qurulur. Laçın bu gün keçmişin bərpası ilə gələcəyin quruculuğunun qovuşduğu məkana çevrilir.

*Laçının yenidən qurulması "Böyük qayıdış"ın konkret nəticələrini nümayiş etdirməklə yanaşı, Azərbaycanın işğaldan azad edilmiş ərazilərlə bağlı uzunmüddətli inkişaf strategiyasının miqyasını da ortaya qoyur. Burada əsas hədəf yalnız dağıdılmış şəhər və kəndləri yenidən inşa etmək deyil, onları iqtisadi cəhətdən fəal, sosial baxımdan dayanıqlı, ekoloji baxımdan müasir və beynəlxalq əlaqələri genişlənən yaşayış məkanlarına çevirməkdir. Bu mənada Laçın Azərbaycanın postmüharibə quruculuq siyasətinin ən görünən və strateji nümunələrindən biridir.*

***Ziyafət ƏSGƏROV,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədr müavini***

# Qəhrəmanlıq tariximizin daha bir səhifəsi

Laçın Azərbaycanın qədim tarixə, bənzərsiz gözəlliyə və ən başlıcası strateji mövqeyə malik rayonlardandır. Ulu Öndər Heydər Əliyev illər öncə Laçının tarixi və strateji əhəmiyyətini dəyərləndirərək demişdir: "Azərbaycanın müstəqilliyi, ərazisinin qorunması nöqteyi-nəzərindən Laçın rayonu çox böyük strateji əhəmiyyətə malikdir".

Təəssüflər olsun ki, 18 may 1992-ci ildə bu strategiya Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilərək odlara qalandı. İnsanların illərdən bəri əziyyət çəkib tikdikləri və əsrlərcə yaşadıqları evlər darmadağın edildi. 30 il doğma ocaqlarından didərgin düşmüş laçınlılar doğma yurdun həsrətilə yaşadılar. Laçının işğalı zamanı 300-dən artıq hərbi və mülki şəxs həlak olmuş və itkin düşmüşdür. Erməni qəsbkarlarının rayonun ərazisində apardıqları talan və qarət zamanı 54 dünya, 200-dən çox yerli əhəmiyyətli tarixi abidə Yer üzündən silinmişdir.

Əvvəlki illər mayın 18-i Laçının işğal günü göz yaşları içində qeyd olunurdu. Üzlərdən, gözlərdən kədər süzülürdü. Artıq həmin kədər və qəm yüklü gün tarixə qovuşub. Çünki Laçın erməni işğalçılarından azad olunub. Prezident İlham Əliyevin 31 iyul 2023-cü il tarixli "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" sərəncamına əsasən, avqustun 26-sı ölkəmizdə Laçın Şəhəri Günü kimi qeyd olunur. İndi üzlərdən, gözlərdən sevinc süzülür. Artıq laçınlılar Laçın Şəhəri Gününü doğma yurdlarında sevinc hissi ilə keçirirlər.

Başqa ərazilərimiz kimi, 30 ilə yaxın ermənilərin işğalında qalmış Laçın rayonu da dağıntılara məruz qalmış, evlər, məktəblər, mədəniyyət ocaqları yerlə yeksan edilmişdi. Erməni işğalından azad olunandan sonra qısa müddət ərzində Laçının bərpasına başlanıldı. Düşmən cəngindən azad edilən Laçında müasir standartlara cavab verən evlər tikildi, rahat yollar çəkildi, tunellər salındı, elektrik stansiyaları quraşdırıldı. Dövlətimizin uğurla həyata keçirdiyi Böyük qayıdış proqramı çərçivəsində Laçında genişmiqyaslı quruculuq işləri yüksək vüsət aldı. 7-8 ay müddətində şəhərin böyük hissəsi yenidən quruldu.




Azərbaycan Ordusu 27 sentyabr 2020-ci ildə başlayan İkinci Qarabağ müharibəsində Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi altında Ermənistanın işğalçı qüvvələrini diz çökdürdü. Ordumuzun yenilməzliyi, zabit və əsgərlərimizin qəhrəmanlığı, xalqımızın yumruq kimi ölkə rəhbərliyinin ətrafında birləşməsi nəticəsində 44 günlük Vətən müharibəsində Qarabağın və ətraf rayonların xeyli ərazisi işğaldan azad olundu.

2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, Laçın rayonu 2020-ci il dekabrın 1-də güllə atılmadan, qan tökülmədən Azərbaycana - əsl sahibinə təhvil verildi. Laçın 2020-ci ildə erməni işğalından azad edilən sonuncu rayon oldu. 44 günlük Vətən müharibəsindən sonra Qarabağda qalmış ermənilər Ermənistana Laçın yolu vasitəsilə gedib-gəldikləri üçün Laçın şəhəri, Zabux və Sus kəndləri yalnız 2022-ci il avqustun 26-da bütövlükdə Azərbaycanın nəzarəti altına keçdi. Həmin gün ölkəmizin qəhrəmanlıq tarixinə şərəfli səhifə kimi yazıldı.

Azərbaycan Ordusu 26 avqust 2022-ci ildə Laçına daxil oldu. Həmin gün Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev rəsmi "X" (tviter) səhifəsində bununla bağlı paylaşımında yazmışdı: "Bu gün, avqustun 26-da biz - azərbaycanlılar Laçın şəhərinə qayıtmışıq. Azərbaycan Ordusu Laçın şəhərinə yerləşdi. Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bütün laçınlıları və Azərbaycan xalqını bu münasibətlə təbrik edirəm. Yaşasın Laçın! Yaşasın Azərbaycan!"

Laçın rayonunun azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmanlıq və igidlik göstərmiş hərbçiləri mükafatlandırmaq üçün 2020-ci il noyabrın 26-da "Laçının azad olunmasına görə" medalı təsis olundu. Bu medal Laçın uğrunda döyüşənlər üçün qəhrəmanlıq rəmzinə çevrildi. Prezident İlham Əliyev 21 sentyabr 2022-ci ildə Laçına səfər edərək böyük təntənə ilə Azərbaycanın bayrağını dalğalandırdı.

Laçın şəhərinə ilk köç 2023-cü il mayın 28-də oldu. Həmin gün Prezident İlham Əliyev Laçın şəhərinə ilk qayıdan sakinlərlə görüşüb evlərinin açarlarını onlara təqdim etdi. Təqdimat mərasimində çıxış edən dövlətimizin başçısı bildirdi ki, bu gün Laçın şəhərinin yeni siması müstəqilliyimizin nə qədər güclü olmasını bir daha göstərir: "Bütövlükdə 7-8 ay ərzində 700 bina inşa edilib, onlardan 620-si fərdi yaşayış binası, 9 çoxmənzilli bina və orada 144 mənzil hazırlanıbdır. Beləliklə, artıq 764 ailə Laçın şəhərində yaşaya bilər. Amma bu, hələ tam proqramımız deyil. Laçın şəhərinin baş planı hazırlanıb və bu gün təqdim ediləcək. Laçın şəhərində ikinci mərhələdə görüləcək işlərlə bağlı bizim çox dəqiq təsəvvürümüz var və beləliklə, hesab edirəm ki, ilin sonuna qədər daha çox insan Laçında yaşaya biləcək".

28 may 2025-ci il də Laçının tarixinə qızıl hərflərlə həkk olundu. Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Laçın Beynəlxalq Hava Limanının açılışı oldu. Mürəkkəb dağlıq relyefdə yerləşən Laçın Beynəlxalq Hava Limanı işğaldan azad olunmuş ərazilərdə inşa edilən üçüncü beynəlxalq hava limanıdır.

Dövlətimizin qəbul etdiyi və uğurla həyata keçirdiyi Böyük qayıdış proqramı çərçivəsində Laçında həyata keçirilən genişmiqyaslı quruculuq işləri həm yüksək zövqlə, həm də keyfiyyətlə aparılır. Artıq 3 ildən çoxdur laçınlıların doğma yurda qayıdışı davam edir.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***



# Bakı və Daşkənd Avrasiyanın yeni geosiyasi xəttini qurur



**Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana dövlət səfərinə yalnız iki qardaş ölkə arasında münasibətlərin növbəti mərhələsi kimi baxmaq onun geosiyasi miqyasını daraltmış olardı. Əslində, Bakı ilə Daşkənd arasında son illərdə baş verən yaxınlaşma Avrasiyada formalaşmaqda olan yeni güc və kommunikasiya arxitekturasının mühüm elementlərindən biridir.**

Bu səfərin ən diqqətçəkən hadisəsi isə Prezident İlham Əliyev və Prezident Şavkat Mirziyoyev tərəfindən "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əbədi dostluq haqqında Müqavilə"nin imzalanmasıdır.

Diplomatik sənədlərdə sözlər təsadüfən seçilmir. Bu mənada müqavilənin adında "əbədi" sözünün işlədilməsi xüsusi siyasi məna daşıyır.

## Niyə məhz "əbədi"?

Dövlətlərarası münasibətlərdə, adətən, "əməkdaşlıq", "strateji tərəfdaşlıq", "hərtərəfli strateji tərəfdaşlıq" və ya "müttəfiqlik" kimi anlayışlardan istifadə olunur. Azərbaycan və Özbəkistan isə artıq bu mərhələlərin böyük hissəsini keçib. 2024-cü ildə "Strateji tərəfdaşlığın dərinləşdirilməsi haqqında Bəyannamə", 2025-ci ildə isə "Müttəfiqlik münasibətləri haqqında Müqavilə" iki ölkənin münasibətlərinin siyasi-hüquqi bazasını ən yüksək səviyyəyə qaldırıb. Prezident İlham Əliyev UzA-ya müsahibəsində də münasibətlərin "ən yüksək pilləyə - müttəfiqlik səviyyəsinə" yüksəldiyini xüsusi vurğulayıb.

Deməli, "əbədi dostluq" ifadəsi sadəcə emosional epitet deyil. Burada verilən əsas mesaj budur: Bakı-Daşkənd münasibətləri ayrı-ayrı hökumətlərin siyasi kursundan, beynəlxalq konyunkturadan və regiondakı müvəqqəti güc balansından asılı münasibətlər kimi nəzərdə tutulmur.

Başqa sözlə, Azərbaycan və Özbəkistan münasibətlərin strateji xarakterini dövlətlərarası sistemin uzunmüddətli elementi kimi təsbit edirlər.

Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevin bu sənədi Azərbaycanın diplomatik təcrübəsində ilk belə addım adlandırması da məsələnin miqyasını göstərir. Tarixdən və xalqların iradəsindən qaynaqlanan dostluq ilk dəfə bu formada siyasi müstəviyə daşınır.

## Xəzər artıq ayırmır, birləşdirir

Baş verən prosesin daha böyük geosiyasi tərəfi isə Azərbaycanla Mərkəzi Asiya arasında münasibətlərin keyfiyyətcə dəyişməsidir.

Uzun müddət Cənubi Qafqaz və Mərkəzi Asiya beynəlxalq siyasətdə ayrı-ayrı geosiyasi məkanlar kimi nəzərdən keçirilirdi. Bu yanaşma artıq dəyişir.

Prezident İlham Əliyev hələ 2025-ci ildə çox dəqiq bir geosiyasi formul irəli sürmüşdü: Azərbaycan və Mərkəzi Asiya ölkələri vahid tarixi, mədəni, coğrafi və geosiyasi məkan formalaşdırır və Xəzər dənizi onları ayıran deyil, birləşdirən amildir.

## Bu, əslində, yeni regional konsepsiyadır

Azərbaycan Mərkəzi Asiyanın Qərbə açılan qapısıdır. Özbəkistan isə 38 milyondan artıq əhalisi, iqtisadi potensialı, coğrafi mövqeyi və artan siyasi çəkisi ilə Mərkəzi Asiyanın əsas güc mərkəzlərindən biridir.

Bakı ilə Daşkənd arasında strateji xəttin möhkəmlənməsi nəticəsində Mərkəzi Asiya-Xəzər-Azərbaycan-Türkiyə-Avropa coğrafiyası daha vahid siyasi-iqtisadi sistemə çevrilir.

## Orta dəhlizin siyasi sütunları

Bu yaxınlaşmanın ən mühüm praktiki ölçülərindən biri Orta dəhlizdir.

Dünyada ənənəvi nəqliyyat və təchizat zəncirlərinin geosiyasi risklərlə üzləşdiyi bir dövrdə Çin və Mərkəzi Asiyanı Xəzər, Azərbaycan və Türkiyə üzərindən Avropaya bağlayan marşrutun əhəmiyyəti sürətlə artır.

Burada Azərbaycan tranzit ölkə olmaqdan daha böyük rol oynayır. Bakı limanı, Ələt logistika infrastrukturu, Bakı-Tbilisi-Qars dəmir yolu və Zəngəzur istiqamətində formalaşan yeni kommunikasiya imkanları Azərbaycanın Avrasiyanın Şərq-Qərb bağlantısındakı mövqeyini gücləndirir.

Özbəkistan üçün də alternativ və etibarlı nəqliyyat marşrutlarına çıxış strateji məsələdir. Bunun nəticəsi artıq rəqəmlərdə görünür: Prezident İlham Əliyevin açıqladığı məlumata görə, iki ölkə arasında tranzit daşımalarının həcmi 2025-ci ildə 6,7 faiz artaraq 1,4 milyon tona çatıb, 2026-cı ilin ilk altı ayında isə daha 12,2 faiz artım qeydə alınıb.

Deməli, siyasi yaxınlaşmanın arxasında real iqtisadi coğrafiya formalaşır.

## Türk dünyasının yeni ağırlıq mərkəzi

Azərbaycan-Özbəkistan yaxınlaşmasının üçüncü mühüm ölçüsü türk dünyasıdır.

Türk Dövlətləri Təşkilatının gələcəyi yalnız ortaq tarix və mədəniyyət üzərində qurula bilməz. Davamlı inteqrasiya üçün nəqliyyat dəhlizləri, qarşılıqlı investisiyalar, enerji şəbəkələri, sənaye kooperasiyası və ortaq siyasi maraqlar lazımdır.

Azərbaycan və Özbəkistan məhz bu modelin aparıcı dövlətlərindən birinə çevrilirlər.

Burada vacib məqam odur ki, yaranan əməkdaşlıq modeli hansısa üçüncü dövlətə qarşı yönəlmiş blok xarakteri daşımır. Əksinə, Azərbaycan və Özbəkistan müxtəlif qlobal güc mərkəzləri ilə münasibətlərini qoruyaraq öz strateji müstəqilliklərini artırmağa çalışırlar.

Bu, müasir çoxqütblü dünyanın yeni diplomatiyasıdır: böyük güclər arasında seçim etmək deyil, özünün ayrıca güc və əməkdaşlıq məkanını yaratmaq.

## Bakı-Daşkənd xətti nəyi dəyişir?

Bu gün Azərbaycan Cənubi Qafqazın, Özbəkistan isə Mərkəzi Asiyanın ən fəal siyasi-iqtisadi aktorlarından biridir. İki ölkənin yaxınlaşması Xəzərin hər iki sahilində yeni strateji bağlantı yaradır.

Bu baxımdan Prezident İlham Əliyevin Daşkənd səfəri təkcə Azərbaycan-Özbəkistan münasibətlərinin tarixi hadisəsi deyil. Bu səfər daha böyük prosesin - Cənubi Qafqazla Mərkəzi Asiyanın vahid geoiqtisadi və getdikcə daha çox geosiyasi məkana çevrilməsinin göstəricisidir.

## Məhz buna görə "əbədi" sözü diqqət çəkir

Bu anlayış keçmiş haqqında deyil, gələcək haqqında verilmiş siyasi mesajdır. Bakı və Daşkənd demək istəyirlər ki, onların strateji yaxınlığı bugünkü beynəlxalq şəraitin yaratdığı müvəqqəti ittifaq deyil. Bu münasibətlərin arxasında tarix, ortaq kimlik və mədəniyyət olduğu kimi, qarşıda ortaq iqtisadi maraqlar, nəqliyyat arteriyaları və Avrasiyanın gələcək arxitekturasında birgə iştirak perspektivi dayanır.

Başqa sözlə, "əbədi dostluq" tarixi yaxınlığın diplomatik ifadəsindən daha çox, gələcək üçün verilmiş geosiyasi təminatdır.

Azərbaycan və Özbəkistan artıq sadəcə iki dost dövlət deyil. Onlar həm də bu gün Avrasiyada yaranmaqda olan yeni strateji məkanın əsas dayaqlarıdır.

***Müşfiq MƏMMƏDLİ,***
***Milli Məclisin deputatı***

# *Yeni uğurlar, yeni hədəflər:*

## Özbəkistanla milyardlıq ticarət əlaqələrimiz qurulacaq

Ötən həftə Azərbaycanın iqtisadi gündəliyi həm ölkə daxilində həyata keçirilən layihə və təşəbbüslər, həm də beynəlxalq və regional əməkdaşlığın genişləndirilməsi istiqamətində atılan addımlarla zəngin olub. İqtisadiyyatın müxtəlif sahələrində yeni imkanların formalaşdırılması, sənaye və sahibkarlıq mühitinin inkişafı, investisiya əlaqələrinin genişləndirilməsi ilə yanaşı, Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə iqtisadi münasibətlərinin dərinləşdirilməsi də həftənin diqqətçəkən mövzularından birinə çevrilib.



Həftənin əsas xarici iqtisadi gündəminə keçməzdən əvvəl xatırladaq ki, ölkə daxilində müxtəlif sahələri əhatə edən bir sıra mühüm yeniliklər baş verib. Rəqəmsal iqtisadiyyatın inkişafı, yeni texnologiyaların tətbiqi, biznes mühitinin genişləndirilməsi və iqtisadi fəaliyyətin müasir tələblərə uyğunlaşdırılması istiqamətində atılan addımlar diqqət çəkib. Bu sırada Azərbaycanın rəqəmsal transformasiya və süni intellekt sahəsində əldə etdiyi imkanların beynəlxalq platformalarda təqdim olunmasını qeyd edə bilərik. Qafqazın ilk tam inteqrasiya olunmuş bankçılıq, ödənişlər və elektron ticarət ekosistemi olan "Bir" ABŞ-nin Las-Veqas şəhərində keçirilən "Ai4 2026" konfransında korporativ süni intellektə dair yanaşmasını beynəlxalq auditoriyaya təqdim edib.

90-dan çox ölkədən 12 mindən artıq iştirakçını bir araya gətirən tədbirdə "Bir" ekosistemini Data və Sİ idarəsinin baş direktoru Valeh Nəbiyev və Sİ ofisinin lideri Seymur Şabanlı təmsil edib. Valeh Nəbiyev konfransda süni intellektin ayrı-ayrı həllər səviyyəsindən çıxarılaraq təşkilatların davamlı və genişmiqyaslı imkanına çevrilməsinin vacibliyini vurğulayıb.

* * *

Ötən həftə Azərbaycanın iqtisadi gündəliyində diqqət çəkən hadisələrdən biri də işğaldan azad edilmiş ərazilərin bərpası və keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışının davam etdirilməsi olub. Bu proses yalnız yeni yaşayış məntəqələrinin salınmasını deyil, həm də uzun illər iqtisadi və sosial həyatdan kənarda qalmış ərazilərin yenidən ölkənin ümumi inkişaf sisteminə inteqrasiyasını nəzərdə tutur.

Xocavənd rayonunun Güneyxırman və Quzeyxırman kəndlərinə köçürülən ailələrə yeni evlərinin açarları verilib. Bu mərhələdə Quzeyxırman kəndinə 82 nəfərdən ibarət 18, Güneyxırman kəndinə isə 103 nəfərlik 21 ailə köçürülüb. Müxtəlif ərazilərdə müvəqqəti məskunlaşmış ailələrin doğma torpaqlarına qayıtması azad edilmiş ərazilərdə quruculuq işlərinin növbəti mərhələsinin nəticəsi kimi qiymətləndirilə bilər.

* * *

Aqrar sahədə qadınların rolunun artırılması istiqamətində Azərbaycanın əldə etdiyi nəticələr beynəlxalq səviyyədə də diqqət çəkib. Azərbaycanlı Gülbəniz Qənbərova FAO-nun "Aqrar-ərzaq sistemləri və kənd yerlərinin inkişafında 100 Qadın Qəhrəmanı" təşəbbüsünün ilk seçilmiş iştirakçıları sırasında yer alıb.

131-dən çox ölkədən 600-dən artıq namizədin iştirak etdiyi seçimdə Gülbəniz Qənbərova aqrar sahənin inkişafına, kənd icmalarının rifahına verdiyi töhfələr, liderliyi və innovativ yanaşmaları ilə fərqlənib. Bu beynəlxalq tanınma Azərbaycanın aqrar sektorunda qadınların əməyinə və liderliyinə verilən qiymətin göstəricisi kimi dəyərləndirilə bilər.

* * *

Həftə Azərbaycanın iqtisadi və biznes mühitində həyata keçirilən layihələrin beynəlxalq səviyyədə tanınması ilə bağlı bir sıra uğurlarla da yadda qalıb. Belə ki, Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu, AZCON Holding və "Azercell" müxtəlif beynəlxalq mükafat proqramlarında fərqlənərək, innovativ yanaşmalarda iştirak ediblər.

Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu Beynəlxalq Yol Federasiyasının Avropa və Mərkəzi Asiya Regional Mükafatlarında "İnnovativ İnşaat Metodologiyası" kateqoriyasında qalib seçilib. 4-6 hərəkət zolaqlı yolun tərkibində 7 tunel, 9 viaduk, 11 körpü, 76 yeraltı və ehtiyat keçid yer alır. Tunellərin ümumi uzunluğu 6,3 kilometrdən çoxdur.

AZCON Holding isə "Brandon Hall Group HCM Excellence Awards" proqramında təqdim etdiyi 5 təşəbbüsdən 4-də qızıl, 1-də isə bürünc mükafata layiq görülüb. Bununla holdinq 48 ölkədən 1050 şirkətin iştirak etdiyi ümumi reytinqdə 47-ci, Azərbaycan şirkətləri arasında isə birinci yeri tutub.

Eyni beynəlxalq müsabiqədə "Azercell" də üç mükafat qazanıb. Şirkətin insan kapitalının idarəedilməsi sisteminin rəqəmsal transformasiyasına dair layihəsi qızıl, IE Business School ilə birgə hazırlanan liderlik proqramı gümüş, "AI Bootcamp" layihəsi isə bürünc mükafata layiq görülüb. Nəticələr Azərbaycanın həm infrastruktur, həm insan kapitalı, həm də rəqəmsal transformasiya sahələrində həyata keçirdiyi layihələrin beynəlxalq səviyyədə diqqət çəkdiyini göstərir.

* * *

Həftənin iqtisadi gündəliyinin əsas hadisəsi Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəridir. Avqustun 23-də başlayan səfər çərçivəsində Azərbaycan və Özbəkistan arasında ticarət-iqtisadi, investisiya, sənaye, enerji və nəqliyyat sahələrində əməkdaşlığın genişləndirilməsi əsas müzakirə mövzularından birini təşkil edib.

Səfər zamanı iki ölkə arasında ticarət dövriyyəsinin 1 milyard dollara çatdırılması ilə bağlı proqram qəbul olunub. Tərəflər sənaye kooperasiyasının genişləndirilməsi, yeni investisiya layihələrinin həyata keçirilməsi, regionlararası əməkdaşlığın gücləndirilməsi və nəqliyyat-tranzit imkanlarından daha səmərəli istifadə barədə razılığa gəliblər. İqtisadi əməkdaşlığın genişləndirilməsində Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti də mühüm yer tutub. Üç il əvvəl 500 milyon dollar kapitalla yaradılan şirkət bu gün də hər iki ölkədə müxtəlif sahələr üzrə perspektivli layihələrin maliyyələşdirilməsində iştirak edir.

Səfər çərçivəsində "yaşıl enerji", neft-qaz, kənd təsərrüfatı, kimya, maliyyə və tikinti sahələrində əməkdaşlıq imkanları da nəzərdən keçirilib. Azərbaycan, Qazaxıstan və Özbəkistanın iştirakı ilə "yaşıl enerji" dəhlizinin yaradılması istiqamətində işlərin davam etdirilməsi, həmçinin Mərkəzi Asiya ilə Azərbaycan arasında nəqliyyat bağlantılarının gücləndirilməsi qarşılıqlı əməkdaşlığın mühüm istiqamətləri kimi önə çıxıb.

Səfərin siyasi nəticələri sırasında Azərbaycan və Özbəkistan arasında Əbədi Dostluq Müqaviləsinin imzalanması və Ali Dövlətlərarası Şuranın üçüncü iclasının keçirilməsi xüsusi qeyd olunmalıdır. Mədəni-humanitar əlaqələrin inkişafı ilə bağlı məsələlər də diqqətdə saxlanılıb. Bununla belə, səfərin iqtisadi nəticələri iki ölkə arasında müttəfiqlik münasibətlərinin praktiki məzmununun getdikcə daha çox ticarət, investisiya, sənaye və nəqliyyat layihələri ilə möhkəmləndiyini göstərir.

Beləliklə, ötən həftənin iqtisadi gündəliyi Azərbaycanın həm daxili inkişaf və quruculuq proseslərini, həm də beynəlxalq iqtisadi əlaqələrin genişləndirildiyini göstərən mühüm hadisələrlə yadda qalıb. Ölkənin müxtəlif sahələrdə qazandığı beynəlxalq uğurlar və Özbəkistanla iqtisadi tərəfdaşlığın yeni mərhələyə yüksəlməsi qarşıdakı dövrdə yeni imkanların formalaşdığını göstərir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Keyfiyyətcə yeni mərhələyə yüksələn münasibətlər

Azərbaycan-Özbəkistan münasibətləri zəngin tarixi, mənəvi və mədəni köklərə söykənir. Son illərdə keyfiyyətcə yeni mərhələyə yüksələn bu əlaqələr Türk Dövlətləri Təşkilatı çərçivəsindəki sıx əməkdaşlıq və Orta dəhliz kimi mühüm regional layihələrlə strateji tərəfdaşlıq xarakteri alıb.

**Milli Məclisin deputatı Kamran BAYRAMOV** qəzetimizə açıqlamasında deyib ki, Prezident İlham Əliyevin Özbəkistana növbəti dövlət səfəri bu çoxşaxəli əməkdaşlığın məntiqi davamı olmaqla yanaşı, iki ölkə arasındakı münasibətlərin artıq nəticə verən müttəfiqlik müstəvisinə keçdiyini aydın şəkildə nümayiş etdirir: "Dövlət başçısının Özbəkistana son beş ildə üçüncü dövlət səfəri, ümumilikdə isə yeddinci ziyarəti Bakı-Daşkənd oxundakı intensivliyin və davamlılığın bariz nümunəsidir. Səfərin ilk günü həm protokol tədbirləri, həm də institusional qərarlarla zəngin olub. Bu səfər iki ölkə münasibətlərinin rəmzi müstəvidən konkret nəticələr müstəvisinə keçdiyini bir daha təsdiqlədi. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Daşkənddə Prezident Şavkat Mirziyoyev və xanımı tərəfindən yüksək səviyyədə qarşılandı, ardınca Heydər Əliyev Memorial Kompleksini və Müstəqillik abidəsini ziyarət etdilər".

K.Bayramov qeyd edib ki, səfərin praktiki və institusional baxımdan ən mühüm məqamı Ali Dövlətlərarası Şuranın növbəti iclasının keçirilməsi idi. İclasdan əvvəl baş tutan təkbətək görüşdə regional təhlükəsizlik və Orta dəhliz üzrə işlərin sürətləndirilməsi kimi strateji məsələlər müzakirə olunub. İqtisadi müstəvidə isə birgə investisiyaların həcminin əvvəllər elan edilən 500 milyon dollar həddini keçdiyi bəyan olunub, eləcə də birgə layihələrin açılış və təməlqoyma mərasimləri keçirilib. İki dövlət arasındakı münasibətlərin real müstəvidə təzahürü kimi Özbəkistanın Qarabağda, xüsusilə Füzulidə məktəb tikintisi və "Dostluq bağı" təşəbbüsü ilə bərpa prosesinə ilk praktiki yardım göstərən ölkə olması xüsusi vurğulanıb. Xankəndi və Ürgənc kimi şəhərlərin qardaşlaşması, müxtəlif sənədlərin imzalanması iki ölkə arasındakı əlaqələrin nəticə verən müttəfiqlik mərhələsinə keçdiyini rəsmən təsdiqləyir.

Deputat diqqətə çatdırıb ki, səfərin siyasi və diplomatik baxımdan ən mühüm nəticəsi "Əbədi dostluq haqqında müqavilə"nin imzalanması oldu: "Sənəddə tərəflər münasibətlərini əbədi dostluq, qarşılıqlı etimad, strateji tərəfdaşlıq və müttəfiqlik prinsipləri əsasında inkişaf etdirmək niyyətlərini təsdiqləyirlər. Suverenliyə, təhlükəsizliyə və ərazi bütövlüyünə qarşılıqlı hörmət müddəaları iki ölkə əlaqələrinin



təkcə ikitərəfli əməkdaşlıqla bitmədiyini, həm də birgə təhlükəsizlik və siyasi dəstək müstəvisinə keçdiyini göstərir. Müqavilənin strateji cəhətdən ən diqqətçəkən məqamı tərəflərin öz ərazilərinin digər dövlətin suverenliyinə və təhlükəsizliyinə qarşı istifadə olunmasına yol verməmək öhdəliyidir. Bu yanaşma siyasi həmrəyliyi institusional səviyyədə möhkəmləndirir. Eyni zamanda regional və qlobal təhlükəsizlik məsələlərində BMT-nin mərkəzi rolunun gücləndirilməsinə sadiqlik ifadə olunur ki, bu da Bakı və Daşkəndin beynəlxalq platformalardakı mövqelərinin üst-üstə düşdüyünü sübut edir. Sənəd yalnız siyasi çərçivə ilə məhdudlaşmır, həm də münasibətlərin gələcək iqtisadi modelini müəyyənləşdirir. Müqavilə ticarət-investisiya, energetika, nəqliyyat-logistika, kənd təsərrüfatı, eləcə də rəqəmsal iqtisadiyyat, elektron ticarət və kosmik texnologiyalar kimi innovativ sahələrdə birgə layihələrin genişləndirilməsini nəzərdə tutur. Bu isə əməkdaşlığın ənənəvi ticarətdən daha yüksək texnologiyalı sahələrə doğru şaxələndiyini aydın şəkildə nümayiş etdirir".

K.Bayramov vurğulayıb ki, Azərbaycan "Şərq-Qərb" və digər beynəlxalq nəqliyyat marşrutlarının strateji halqası, Özbəkistan isə Mərkəzi Asiyanın ən böyük iqtisadi və demoqrafik mərkəzidir. Bu səbəbdən iki ölkənin logistika sahəsindəki tərəfdaşlığı yalnız ikitərəfli münasibətləri deyil, bütövlükdə geniş regional inteqrasiyanı yeni səviyyəyə qaldırır. Müqavilənin iqtisadi gündəliyində "yaşıl iqtisadiyyat" və rəqəmsal transformasiyanın yer alması xüsusilə diqqətəlayiqdir. "Qlobal enerji keçidinin sürətləndiyi bir dövrdə Bakı və Daşkəndin bu sahələri prioritet seçməsi gələcək innovativ layihələr üçün geniş imkanlar açır. Sənəd əməkdaşlığı yalnız dövlət qurumları və biznes strukturları ilə məhdudlaşdırmır. Parlamentlərarası dialoqun dərinləşdirilməsi və xalqlararası dostluğun möhkəmləndirilməsi diplomatiyanın cəmiyyətlərarası müstəviyə keçməsini təmin edir. Münasibətlərin ən sarsılmaz dayağı isə ortaq köklər, dil və mədəniyyət birliyidir. Sənəd elm, təhsil, mədəniyyət, tibb, turizm və idman sahələrində sıx mübadiləni nəzərdə tutur. Xüsusilə Azərbaycan və özbək dillərinin qarşılıqlı tədrisi müddəası media, ədəbiyyat və akademik mühitdə birbaşa əlaqələri stimullaşdıran mühüm addımdır. Regionlararası əməkdaşlıq və şəhərlərin qardaşlaşması tərəfdaşlığın mərkəzi hakimiyyətdən yerli səviyyələrə şaxələnməsinə şərait yaradır. Bu isə birbaşa investisiyaların və biznes təşəbbüslərinin artmasını təmin edəcək. Turizm sahəsinin ayrıca istiqamət kimi göstərilməsi isə hər iki ölkənin zəngin tarixi-mədəni irsindən və artan qarşılıqlı maraqdan daha səmərəli istifadəyə imkan verəcək", - deyə o əlavə edib.

K.Bayramov bildirib ki, Azərbaycan və Özbəkistan bir-birinin suverenliyinə və təhlükəsizliyinə hörmətlə yanaşaraq, çoxşaxəli əməkdaşlığı genişləndirmək iradəsini nümayiş etdirirlər. Bu isə münasibətlərin rəsmi bəyanatlarla məhdudlaşmadığını, real, praktiki dəstəyə söykəndiyini təsdiqləyir. Təhsil, mədəniyyət, turizm və gənclər siyasəti sahələrindəki birgə addımlar xalqların bir-birini daha yaxından tanımasına zəmin yaradır. Çünki dövlətlərarası müttəfiqliyin ən etibarlı zəmanəti onun cəmiyyət səviyyəsində kök salmasıdır. Bu gün dərinləşən siyasi, iqtisadi və humanitar bağlar gələcək nəsillər üçün daha təhlükəsiz və dayanıqlı tərəfdaşlıq modeli formalaşdırır.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***



# Strateji tərəfdaşlıq, müttəfiqlik və əbədi dostluq

## Azərbaycan-Özbəkistan əlaqələri Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarının geosiyasi və geoiqtisadi bağlantısı üçün əhəmiyyətli rol oynayır

"Bu gün Mərkəzi Asiya və Azərbaycan böyük potensiala, eyni zamanda bundan da böyük inkişaf imkanlarına malik vahid geosiyasi və geoiqtisadi regiondur. Bu böyük, hətta deyərdim ki, yenidən yaradılmış və artıq kifayət qədər inteqrasiya olunmuş regionun inkişafının ümumi müsbət dinamikası da bu halda Özbəkistan və Azərbaycan arasında sıx qarşılıqlı əlaqələrdən asılıdır".

Prezident İlham Əliyevin avqustun 23-də Özbəkistandan səsləndirdiyi bu bəyanat Bakı və Daşkənd arasında formalaşan yeni reallığın mahiyyətini dəqiq əks etdirir. Bu gün Azərbaycan və Özbəkistan münasibətləri, sadəcə, iki dövlətin ikitərəfli əməkdaşlığı çərçivəsindən çıxaraq Cənubi Qafqaz ilə Mərkəzi Asiyanın geosiyasi və geoiqtisadi inteqrasiyasını təmin edən əsas hərəkətverici qüvvəyə çevrilib.

### Dərinləşən əlaqələr, gerçəkləşən hədəflər

Ölkələrimiz arasında əsrlərdən bəri mövcud olan tarixi, mədəni və mənəvi bağlar bu gün, sadəcə, bəyanatlarla deyil, konkret hüquqi mexanizmlər, iqtisadi layihələr və institutlaşmış strateji tərəfdaşlıqla möhkəmlənir. Bakı və Daşkənd arasında inkişaf edən münasibətlər strateji tərəfdaşlıq, müttəfiqlik və əbədi dostluq məntiqi üzrə uğurla irəliləyir. 2024-cü ilin avqustunda Daşkənddə imzalanmış Müttəfiqlik münasibətləri haqqında müqavilədən sonra bu ilin 23 avqustunda Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri zamanı imzalanan "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əbədi dostluq haqqında Müqavilə" əlaqələrin keyfiyyətcə yeni və ən yüksək mərhələsini özündə ehtiva edir.

Müqavilə iki dövlətin beynəlxalq hüququn hamılıqla tanınmış prinsiplərini rəhbər tutaraq münasibətlərini əbədi dostluq, qarşılıqlı etimad və müttəfiqlik əsasında qurduğunu təsbit edir. Tərəflər bir-birinin suverenliyinə, təhlükəsizliyinə və ərazi bütövlüyünə zərər vuran hər hansı blok və ya ittifaqlarda iştirak etməməyi, öz ərazilərinin üçüncü ölkələr və ya qruplar tərəfindən digər tərəfin dövlət maraqlarına qarşı istifadəsinə yol verməməyi öhdələrinə götürürlər. Bu sənəd böyük güclərin rəqabəti fonunda iki ölkənin regional sabitlik amili kimi çıxış etməsini təmin edir. Özbəkistan hər zaman Azərbaycanın haqq işini dəstəkləyib. Daşkənddə Azərbaycan və Özbəkistan Ali Dövlətlərarası Şuranın 3-cü iclası zamanı bu xüsusi məqama diqqətçəkən ölkəmizin başçısı qeyd edib ki, biz ikitərəfli formatda, iştirak etdiyimiz bütün beynəlxalq təşkilatlarda həmişə bir-birimizi dəstəkləyirik: "Bu, avtomatik rejimdə baş verir".

Əbədi dostluq haqqında müqavilədə təkcə təhlükəsizlik sahəsi ilə bağlı deyil, ölkələrimizin siyasi, iqtisadi, mədəni əlaqələri barədə də mühüm məsələlər əksini tapıb.

İki ölkə nəqliyyat sistemlərinin qarşılıqlı inteqrasiyasına xüsusi diqqət ayırır. Sənəddə əks olunub ki, yüklərin və sərnişinlərin əlverişli və qarşılıqlı faydalı daşınmasını təmin etməyə, eləcə də nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına yönəlmiş qarşılıqlı əlaqəli nəqliyyat sisteminin daha da möhkəmləndirilməsi üçün zəruri şərait yaradırlar.

Urgenç-Xankəndi, Urgenç-Naxçıvan və Buxara-Laçın kimi şəhərlərarası tərəfdaşlıq razılaşmaları regionlararası əməkdaşlığı gücləndirir.

Prezident İlham Əliyev və Özbəkistan rəhbəri Şavkat Mirziyoyev arasında formalaşmış yüksək şəxsi etimad dövlətlərarası münasibətlərin əsas hərəkətverici qüvvəsidir. Liderlərin həyata keçirdiyi genişmiqyaslı islahatlar hər iki ölkənin iqtisadi potensialını və beynəlxalq nüfuzunu artırıb.

Azərbaycan ilə Özbəkistan arasında iqtisadi tərəfdaşlıq konkret rəqəmlər və mexanizmlərlə möhkəmlənir. İki dövlət ticarət dövriyyəsini 2030-cu ilədək 1 milyard dollara çatdırmağı hədəfləyir.

### Vahid geosiyasi və geoiqtisadi məkan

Özbəkistan Qarabağın bərpası prosesinə praktiki dəstək verən ilk ölkələrdən biri kimi öz qardaşlıq mövqeyini nümayiş etdirib.

Ölkəmizin rəhbəri Daşkənddə mətbuata bəyanatında ölkələrimiz arasındakı bu səmimi əlaqələr barədə deyib: "Əlbəttə, Prezident Şavkat Miromonoviç Mirziyoyevin Qarabağa investisiya cəlb edilməsində müstəsna rolunu bir daha qeyd etmək istərdim. İlk yardım - Füzulidə Mirzə Uluqbəy adına 960 şagird yerlik məktəbin tikintisi və Xankəndidə tikiş fabrikinə investisiyalar Özbəkistandan gəldi. İlk böyük sənaye müəssisəsi də Özbəkistanla bağlıdır. Həm Qarabağ bölgəsində, həm də bir çox digər bölgələrdə əlavə qarşılıqlı fəaliyyət planları mövcuddur. Həmçinin diqqətəlayiqdir ki, bu gün bir çox layihənin, - düşünürəm ki, on, bəlkə də daha çox, - açılışı və ya təməlinin qoyulması ilə bağlı tədbirlər zamanı regional layihələr də olub".

Azərbaycan və Özbəkistanın yaxınlaşması Xəzərin iki sahilini bir-birinə bağlayaraq vahid geosiyasi və geoiqtisadi məkan formalaşdırır. Bu əməkdaşlıq Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində inteqrasiyaya da güclü impuls verir.

Azərbaycan Xəzərdən Qərbə, Özbəkistan isə Mərkəzi Asiyadan Xəzərə çıxış imkanlarını birləşdirərək Orta dəhlizin əsas aktorlarına çevriliblər.

İki liderin sarsılmaz siyasi iradəsi, Ali Dövlətlərarası Şura və Birgə İnvestisiya Fondu kimi institusional mexanizmlərin effektiv fəaliyyəti, habelə ticarət dövriyyəsinin 1 milyard dollara çatdırılması hədəfi göstərir ki, bu tərəfdaşlıq kağız üzərində deyil, reallıqda dərinləşir. Azərbaycan və Özbəkistanın həm Orta dəhliz kimi nəqliyyat-logistika layihələrində, həm də Türk Dövlətləri Təşkilatı çərçivəsində artan birgə rolu Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarının geosiyasi bağlantısını və sabitliyini təmin edən əsas amilə çevrilib. Bu strateji ittifaq təkcə iki dövlətin deyil, bütövlükdə geniş Avrasiya coğrafiyasının təhlükəsizliyinə, iqtisadi tərəqqisinə və xalqlarımızın rifahına xidmət edən davamlı inkişaf modelidir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Azərbaycan-Özbəkistan münasibətləri türk dünyasının inteqrasiyasına böyük təkan verir

Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri və Daşkənddə Ali Dövlətlərarası Şurasının 3-cü iclasının keçirilməsi ölkələrimiz arasında dostluq, qardaşlıq münasibətlərinin dərinləşməsinə böyük töhfə verəcək. Azərbaycanla Özbəkistan arasında mövcud əlaqələr ikitərəfli əməkdaşlıqla yanaşı, Mərkəzi Asiya ilə Cənubi Qafqaz və Avropanı birləşdirəcək geosiyasi və geoiqtisadi proses kimi qiymətləndirilir.



**Bakı Dövlət Universitetinin kafedra müdiri, professor Kamilə ƏLİYEVA** qəzetimizə açıqlamasında deyib ki, Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünə tamhüquqlu üzv qəbul edilməsində Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin böyük xidməti olub: "Artıq Azərbaycan Mərkəzi Asiya regionunun da bir hissəsi kimi qəbul edilir. Azərbaycan və Özbəkistanın qardaşlıq və strateji müttəfiqlik səviyyəsinə yüksəlməsində Prezident İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev arasında səmimi dostluq və etimad xüsusi rol oynayır. İki dövlət liderləri arasında olan bu münasibət dövlətlərimiz və xalqlarımız arasında əlaqələrin inkişafına da əhəmiyyətli təkan verir. 2024-cü ildə imzalanmış Müttəfiqlik münasibətləri haqqında müqavilə ölkələrimiz arasında siyasi, iqtisadi, təhlükəsizlik əlaqələrini ən yüksək səviyyəyə çatdırıb".

Ekspert qeyd edib ki, Azərbaycanla Özbəkistanın ticarət dövriyyəsinin yaxın vaxtlarda bir milyard dollara çatdırılması barədə qərar olduqca önəmli bir addımdır. Prezident İlham Əliyev mətbuata bəyanatında iki dövlət arasında enerji, nəqliyyat, bank sektoru, avtomobil sənayesi, turizm və bir sıra digər sahələrdə əməkdaşlığın daha da genişləndiriləcəyini vurğuladı. Bu baxımdan SOCAR-ın Özbəkistanda yeni layihələrdə iştirakının artırılmasını xüsusi qeyd etmək lazımdır. Enerji sahəsində əməkdaşlıq da olduqca əhəmiyyətli addımdır. Azərbaycanla Özbəkistan arasında neft-qaz kəşfiyyat layihələrinin son mərhələyə çatması olduqca strateji bir hadisədir və gələn il istismar quyularının qazılması haqqında qərar iki dövlət arasında enerji əməkdaşlığının mühüm göstəricisidir. "Bu, həm də Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə enerji əlaqələrinin dərinləşməsinə böyük töhfə verəcək. Xəzər dənizində birgə donanmanın istifadəyə verilməsinin sürətləndirilməsi, eləcə də Azərbaycan-Özbəkistan dəhlizinin yaradılması haqqında razılaşma olduqca mühüm əhəmiyyət daşıyır. Özbəkistan işğaldan azad edilmiş torpaqlarımızda yenidənqurma işlərində də olduqca fəal iştirak edir. Füzulidə 960 yerlik məktəbin və Xankəndidə tikiş fabrikinin Özbəkistan dövləti tərəfindən tikilməsi dostluq və qardaşlığın bariz nümunəsidir. Azərbaycanla Özbəkistan arasında sıx siyasi-iqtisadi, eləcə də qardaşlıq əlaqələri iki dövlətlə yanaşı, türk dünyasının inteqrasiyasına böyük təkan verir",- deyə o əlavə edib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Azərbaycan yeni dünya düzəninin formalaşmasında iştirak edən ölkədir

Şərqlə Qərb, Şimalla Cənub arasında mühüm coğrafi mövqeyə malik olan Azərbaycan türk dünyasının siyasi və iqtisadi inteqrasiyasında fəal iştirak edir, Avropa ilə strateji tərəfdaşlığını genişləndirir, Mərkəzi Asiya ilə əlaqələrini dərinləşdirir, Rusiya və Ukrayna ilə münasibətlərini milli maraqlar əsasında qurur, Çinlə strateji tərəfdaşlığını möhkəmləndirir və Cənubi Qafqazda yeni sülh reallığını formalaşdırır.

Bu mənzərə təsadüfi siyasi qərarların məcmusu deyil. Bunun arxasında uzun illər ərzində formalaşmış dövlət siyasəti dayanır və onun əsas müəllifi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdir.

Müasir dünyada dövlətin gücündən söz açarkən hərbi potensialı önə çıxarmaq kifayət etmir. Güc həm də diplomatik manevr imkanında, iqtisadi əlaqələrin genişliyində, nəqliyyat marşrutlarının əhəmiyyətində, enerji təhlükəsizliyində, beynəlxalq təşəbbüslərdə və başqa dövlətlərin həmin ölkənin mövqeyini nəzərə almaq məcburiyyətində qalmasında ifadə olunur. Azərbaycanın son illər qazandığı ən mühüm nəticələrdən biri də məhz budur - ölkəmizin beynəlxalq münasibətlər sistemində siyasi çəkisi əhəmiyyətli dərəcədə artıb.

Ölkəmizin bugünkü geosiyasi mövqeyini 2020-ci ilin Zəfərindən ayrı təsəvvür etmək mümkün deyil. 44 günlük Vətən müharibəsi nəticəsində ərazi bütövlüyünün böyük hissəsinin bərpası, 2023-cü ildə isə ölkənin suverenliyinin tam təmin olunması Azərbaycan dövlətçiliyi tarixində yeni mərhələ açdı. Bu mərhələ Prezident İlham Əliyevin uzunmüddətli və ardıcıl siyasətinin mühüm tarixi nəticəsidir. Qarabağ Zəfərinin əhəmiyyəti yalnız hərbi qələbə ilə məhdudlaşmadı, əsl siyasi sınaq ondan sonra başladı. Qələbəni davamlı sülhə, iqtisadi inkişafa və regional əməkdaşlığa çevirmək böyük siyasi iradə tələb edirdi. Azərbaycan məhz bu yolu seçdi. Qarabağ və Şərqi Zəngəzur bu gün bərpa-quruculuq işləri ilə yanaşı, yeni iqtisadi, nəqliyyat, enerji və sosial inkişaf modelinin tətbiq olunduğu məkana çevrilib. Şuşanın türk dünyasının siyasi və mədəni həyatında xüsusi yer qazanması isə Azərbaycanın bu coğrafiyadakı rolunun daha bir ifadəsidir.

Türk dünyasının bugünkü inteqrasiya prosesini Azərbaycanın fəal iştirakı olmadan təsəvvür etmək çətindir. Burada söhbət yalnız Azərbaycan-Türkiyə münasibətlərindən getmir, eyni zamanda tarixi və mədəni yaxınlığı siyasi, iqtisadi, nəqliyyat, enerji, humanitar və texnoloji əməkdaşlığa çevirən daha böyük prosesdən gedir. Prezident İlham Əliyevin türk dünyasına münasibətdə siyasətinin mühüm xüsusiyyəti də məhz budur: ortaq keçmişi yalnız tarixi yaddaş kimi qorumaqla yanaşı, onu ortaq gələcəyin siyasi və iqtisadi resursuna çevirmək. Bu gün Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində əməkdaşlıq təkcə mədəni əlaqələrlə məhdudlaşmır, həm də nəqliyyat, investisiya, ticarət, enerji, rəqəmsallaşma, təhsil və digər istiqamətlərdə əlaqələr də genişlənir. 2024-cü ildə Şuşada keçirilən qeyri-rəsmi Zirvə görüşü də bu prosesin mühüm siyasi mərhələlərindən biri oldu. Azərbaycan türk dünyasının inteqrasiyasında yalnız iştirak edən deyil, bu prosesə siyasi dinamika verən dövlətlərdən birinə çevrilib.



Türk dünyasının iqtisadi və geosiyasi potensialını artıran əsas amillərdən biri Orta dəhlizdir. Azərbaycan Xəzərin qərb sahilində yerləşməklə Mərkəzi Asiya ilə Cənubi Qafqazı, Türkiyə ilə Mərkəzi Asiyanı, daha geniş mənada isə Asiya ilə Avropanı birləşdirən strateji körpü rolunu oynayır. Orta dəhliz bu baxımdan yalnız yükdaşıma marşrutu olmayıb, Avrasiyanın iqtisadi xəritəsini dəyişə biləcək geoiqtisadi bağlantıdır.

Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə münasibətlərinin sürətli inkişafı da bu strategiyanın mühüm istiqamətidir. Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan və Tacikistanla əlaqələr son illər yeni məzmun qazanıb. Burada Özbəkistanla münasibətlərin inkişafını xüsusi qeyd etmək lazımdır. Azərbaycan-Özbəkistan əlaqələri siyasi münasibətlərdən iqtisadi, mədəni, təhsil və investisiya əməkdaşlığına qədər genişlənir. Bu günlər Prezident İlham Əliyevin Daşkənd səfəri çərçivəsində Azərbaycan və Özbəkistan arasında yeni layihələrin həyata keçirilməsi, o cümlədən "Azərbaycan" parkının təməlinin qoyulması və Nizami Gəncəvi adına Milli Pedaqoji Universitetinin açılışı iki ölkə arasında münasibətlərin çoxşaxəli xarakter aldığını göstərən son nümunələrdəndir.

Pakistanla münasibətlər də Azərbaycanın genişlənən geosiyasi əməkdaşlıq coğrafiyasının mühüm istiqamətlərindəndir. Pakistanın Azərbaycanın ərazi bütövlüyünə verdiyi prinsipial dəstək qarşılıqlı siyasi etimadın möhkəm təməlini yaradıb. Eyni zamanda Pakistan Azərbaycan üçün Cənubi Asiyaya açılan mühüm siyasi və iqtisadi tərəfdaşdır. Pakistanla əlaqələrin inkişafına daha geniş regional əməkdaşlıq kontekstində yanaşmaq lazımdır. Bu, ölkəmizin əməkdaşlıq coğrafiyasını etnik sərhədlərlə məhdudlaşdırmadığını göstərir.

Eyni yanaşma Azərbaycanın qonşu və böyük dövlətlərlə münasibətlərində də özünü büruzə verir. Rusiya ilə münasibətlər yüksək diplomatik çeviklik və milli maraqların ardıcıl müdafiəsini tələb edən istiqamətlərdəndir. Azərbaycan bu münasibətlərdə müstəqil mövqeyini qorumağa çalışır və heç bir böyük güclə münasibətlərini digər tərəflə qarşıdurmanın alətinə çevirmir.

Azərbaycan-Ukrayna münasibətlərində isə ölkəmizin dövlətlərin ərazi bütövlüyü və suverenliyi prinsipinə verdiyi əhəmiyyət aydın görünür. Ölkəmizin özünün uzun illər ərazi bütövlüyünün pozulması problemi ilə üzləşməsi bu prinsipial mövqenin siyasi mahiyyətini daha aydın izah edir.

Qonşu İranla münasibətlər də Azərbaycanın balanslı və qarşılıqlı hörmətə əsaslanan regional siyasətinin mühüm istiqamətlərindən biridir. Azərbaycanla İranı yalnız ümumi sərhəd deyil, tarixi, mədəni və humanitar bağlar da birləşdirir.

Azərbaycanın Avropa ilə münasibətlərinin inkişafı ölkənin geosiyasi çəkisinin artmasının mühüm göstəricisidir. Azərbaycan Avropanın enerji təhlükəsizliyində tərəfdaş olmaqla yanaşı, Avropa ilə Mərkəzi Asiyanı birləşdirən nəqliyyat və logistika sistemində strateji mövqe tutur. Enerji, nəqliyyat, "yaşıl enerji", rəqəmsal bağlantı və regional təhlükəsizlik məsələlərinin bir-birini tamamlayan istiqamətlərə çevrilməsi Azərbaycanın Avropa ilə əməkdaşlığının məzmununu genişləndirib.

Yeni dünya düzənindən danışarkən Çin istiqamətini də nəzərdən qaçırmaq olmaz. Azərbaycanla Çin arasında hərtərəfli strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanat ölkəmizin xarici siyasət coğrafiyasının genişliyini göstərən mühüm siyasi hadisədir. Çinlə əlaqələrin inkişafı Orta dəhlizin perspektivləri baxımından da xüsusi əhəmiyyət daşıyır. Beləliklə, Azərbaycan bir tərəfdən, türk dünyasının inteqrasiyasında aparıcı rol oynayır, digər tərəfdən, Çin, Avropa və digər qlobal güc mərkəzləri ilə əməkdaşlığını inkişaf etdirir. Bu istiqamətlər bir-birinə zidd deyil, əksinə, Azərbaycanın geosiyasi əhəmiyyətini artıran amillərdir.

Prezident İlham Əliyevin siyasətinin mühüm xüsusiyyətlərindən biri də hərbi qələbənin siyasi nəticəyə çevrilməsi istiqamətində nümayiş etdirilən iradədir. Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra regionun gələcəyinin qarşıdurma üzərində qurulmasının mümkünsüzlüyünü ortaya qoydu. Çünki Cənubi Qafqazın gələcəyi müharibədə deyil, sülhdə, əməkdaşlıqda və iqtisadi inteqrasiyadadır. Azərbaycan-Ermənistan münasibətlərində 2025-ci ildə əldə olunan mühüm siyasi irəliləyişlər də bu baxımdan yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. Sülh gündəliyinin irəliləməsi yeni nəqliyyat xətlərinin açılması, iqtisadi əməkdaşlığın genişlənməsi və regionun beynəlxalq bağlantılarının artması üçün imkanlar yaradır.

Dövlətin beynəlxalq nüfuzu yalnız dövlət institutlarının fəaliyyəti ilə formalaşmır. Liderin şəxsi siyasi nüfuzu da ölkənin diplomatik imkanlarının mühüm hissəsinə çevrilə bilər. Prezident İlham Əliyevin müxtəlif siyasi qütblərlə dialoq aparmaq, fərqli maraqları uzlaşdırmaq və Azərbaycanın milli mövqeyini beynəlxalq müstəvidə ardıcıl müdafiə etmək bacarığı ölkəmizin siyasi kapitalını artıran amillərdəndir. Əsas məsələ şəxsi nüfuzun arxasında dayanan nəticələrdir - Qarabağ Zəfəri, ərazi bütövlüyünün və suverenliyin bərpası, türk dünyasında Azərbaycanın artan rolu, Orta dəhlizdə strateji mövqe, Avropanın enerji təhlükəsizliyində artan əhəmiyyət, Çinlə strateji tərəfdaşlıq, Mərkəzi Asiya ilə dərinləşən əlaqələr və Cənubi Qafqazda sülh gündəliyinin formalaşdırılması.

Dünya dəyişir, yeni güc mərkəzləri formalaşır, yeni ittifaqlar və bağlantılar yaranır, dövlətlər milli maraqlarını dəyişən geosiyasi reallıqlara uyğunlaşdırır. Belə bir dövrdə əsas məsələ yalnız dəyişikliklərə uyğunlaşmaq deyil, onların formalaşmasına təsir göstərməkdir. Azərbaycanın son illər keçdiyi yol göstərir ki, coğrafi mövqeyi geosiyasi üstünlüyə, enerji imkanlarını strateji tərəfdaşlığa, nəqliyyat potensialını geoiqtisadi gücə, tarixi-mədəni bağlılıqları türk həmrəyliyinə, Qarabağ Zəfərini isə yeni regional sülh gündəliyinə çevirmək bu siyasətin mühüm nəticələridir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə: nəticələr və prioritet istiqamətlər

## Bu sahədə həyata keçirilən tədbirlər sistemli və kompleks xarakter daşıyır

Müasir dövrdə narkomanlıq və narkotik vasitələrin qanunsuz dövriyyəsi insan sağlamlığına, sosial sabitliyə və ictimai təhlükəsizliyə ciddi təhdid yaradan qlobal problemlərdən biri olaraq qalmaqdadır. Problemin miqyası və cəmiyyətin müxtəlif təbəqələrinə təsiri narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin yalnız hüquq-mühafizə tədbirləri ilə məhdudlaşdırılmamasını, eyni zamanda profilaktik, tibbi, sosial və maarifləndirici mexanizmlərin kompleks şəkildə tətbiqini zəruri edir.

Azərbaycan Respublikasında narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin qarşısının alınması, narkomanlığın yayılmasının məhdudlaşdırılması, narkotik asılılığından əziyyət çəkən şəxslərin müalicəsi və reabilitasiyası istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Bu siyasət gənc nəslin sağlam inkişafının təmin edilməsi, milli-mənəvi dəyərlərin qorunması və cəmiyyətin təhlükəsizliyinin möhkəmləndirilməsi məqsədlərinə xidmət edir.

Bu istiqamətdə dövlət siyasətinin mühüm hüquqi əsaslarından biri Azərbaycan Respublikası Prezidentinin 17 sentyabr 2025-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı"dır. Dövlət proqramının əsas məqsədləri sırasında narkotiklərin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının qarşısının alınması, müalicə və reabilitasiya sahəsində yeni üsulların tətbiqi, normativ hüquqi bazanın təkmilləşdirilməsi və kompleks tədbirlərin həyata keçirilməsi xüsusi yer tutur.

Dövlət proqramına uyğun olaraq hazırda müasir texnoloji imkanlardan, analitik idarəetmə alətlərindən və qabaqcıl yanaşmalardan istifadə edilməklə narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınması istiqamətində əlaqələndirilmiş tədbirlər həyata keçirilir. Eyni zamanda narkomanlığın yayılmasının məhdudlaşdırılması, narkotik asılılığından əziyyət çəkən şəxslərin müalicə və reabilitasiya imkanlarının genişləndirilməsi, səhiyyə müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi və əhali arasında maarifləndirmə işinin gücləndirilməsi istiqamətində də mühüm işlər görülür.

### Hüquq-mühafizə tədbirləri və əldə olunan nəticələr

Narkotik vasitələrə olan tələbatın azaldılması və qanunsuz dövriyyənin qarşısının alınması məqsədilə hüquq-mühafizə orqanları tərəfindən preventiv və əməliyyat-axtarış tədbirləri ardıcıl şəkildə davam etdirilir.

2026-cı ilin yanvar-iyul ayları ərzində həyata keçirilmiş kompleks tədbirlər nəticəsində ümumilikdə 4.963 cinayət faktı aşkar edilmişdir. Onlardan 1.250-si narkotik vasitələrin qanunsuz satışı, 3.613-ü qanunsuz əldə etmə və saxlama, 97-si narkotik tərkibli bitkilərin qanunsuz əkilib-becərilməsi, 3-ü isə digər cinayətlərlə bağlı olmuşdur.

Hesabat dövründə qanunsuz dövriyyədən ümumilikdə 6 ton 223 kq 519,057 qram narkotik vasitə və psixotrop maddə çıxarılmışdır. Müsadirə edilmiş narkotik vasitələrin ümumi dəyəri 187 milyon 200 min manat qiymətləndirilmişdir.

Müsadirə edilmiş narkotik vasitələrin əsas hissəsini marixuana təşkil etmişdir. Belə ki, ümumi müsadirənin 5 ton 307 kq 260,329 qramı marixuananın payına düşmüşdür. Bundan əlavə, 257 kq 73,146 qram heroin, 124 kq 912,418 qram tiryək, 247 kq 630,147 qram həşiş, 125 kq 541,94 qram digər narkotik vasitələr və 161 kq 101,077 qram psixotrop maddələr müsadirə edilmişdir.

Hesabat dövründə həmçinin 34.983 ədəd metadon həbi, 12.715 ədəd çətənə bitkisi, psixotrop maddə həbləri, güclü təsir edən və zəhərli maddələr aşkar edilərək qanunsuz dövriyyədən çıxarılmışdır.

Narkotik tərkibli bitkilərin qanunsuz becərilməsinə qarşı da məqsədyönlü tədbirlər görülmüşdür. 2026-cı ilin yanvar-iyul aylarında 1.167,2 hektar ərazidə yaş kütləsi 327 ton 716 kq olan 3.960 601 ədəd yabanı halda bitmiş narkotik tərkibli bitki müəyyən edilərək məhv edilmişdir.

### Cinayət məsuliyyətinin və qaçaqmalçılığın qarşısının alınması

Hesabat dövründə narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayət məsuliyyətinə 3.282 nəfər cəlb edilmişdir. Onlardan 3.188-i kişi, 94-ü qadın, 33-ü isə xarici ölkə vətəndaşı olmuşdur.

Narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı 114 fakt aşkar edilmişdir. Həmin faktlar üzrə ümumi çəkisi 1 ton 606 kq 95,682 qram olan narkotik vasitələr və 20.930 ədəd metadon həbi qanunsuz dövriyyədən çıxarılmışdır.

Aşkar edilmiş cinayətlərin 134-ü qrup halında törədilmiş, 1.785 cinayət faktı isə əvvəllər məhkum olunmuş şəxslərin törətdiyi cinayətlərlə bağlı olmuşdur.

2025-ci ilin yanvar-iyul ayları ilə müqayisədə 2026-cı ilin eyni dövründə aşkar edilmiş ümumi cinayət faktlarının sayı 251, narkotik vasitələrin qanunsuz satışı ilə bağlı faktların sayı 382, narkotik tərkibli bitkilərin qanunsuz kultivasiyası ilə bağlı faktların sayı 30, qaçaqmalçılıq faktlarının sayı 30, qrup halında törədilmiş cinayətlərin sayı 25 fakt azalmışdır. Cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərin sayı 98, xarici ölkə vətəndaşlarının sayı isə 31 nəfər azalmışdır. Bununla yanaşı, qanunsuz əldə etmə və saxlama ilə bağlı faktların sayı 160, qanunsuz dövriyyədən çıxarılan narkotik vasitələrin çəkisi isə 1 ton 274 kq 46,039 qram artmışdır.

### Narkotik vasitələrin məhv edilməsi

Qanunsuz dövriyyədən çıxarılmış narkotik vasitələrin məhv edilməsi də mübarizə tədbirlərinin mühüm istiqamətlərindən biridir. 2026-cı ilin 30 yanvar və 11 iyun tarixlərində Dövlət Komissiyasının İşçi Qrupunun təşkilatçılığı ilə külli və xüsusilə külli miqdarda narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi həyata keçirilmişdir. Ümumilikdə 1 471 məhkəmə hökmü əsasında məhvetmə qərarı qəbul edilmiş 6 ton 13 kq 620,899 qram narkotik vasitə və psixotrop maddə, 162.759 ədəd həb, 4 745 ədəd həb və 240 paket güclü təsir edən maddə, eləcə də 13.367 ədəd çətənə bitkisi məhv edilmişdir.

Bundan başqa, 36 rayon və şəhərdə 957 məhkəmə hökmü əsasında ümumi çəkisi 32 kq 177,238 qram olan müxtəlif növ narkotik vasitə və psixotrop maddələr, 131 ədəd çətənə bitkisi və 27 ədəd güclü təsir edən maddə həbi məhv edilmişdir.

### Müalicə və reabilitasiya istiqamətində tədbirlər

Narkomanlığa qarşı mübarizənin mühüm tərkib hissəsi narkotik asılılığından əziyyət çəkən şəxslərin vaxtında müəyyənləşdirilməsi, müalicəyə cəlb olunması və reabilitasiyasıdır.

2026-cı ilin yanvar-iyul aylarında bütün növ sərxoşluq hallarının müəyyən edilməsi məqsədilə 54.434 nəfər Respublika Narkoloji Mərkəzinə istiqamətləndirilmişdir. Narkotik istifadəsinin müəyyən edilməsi məqsədilə tibbi müayinədən keçirilmiş 3.778 nəfərdən 1.851 nəfərin narkotik vasitə istifadəçisi olduğu müəyyən edilmişdir.

Hazırda metadonla əvəzedici müalicə proqramı çərçivəsində üç məntəqədə ümumilikdə 667 nəfər müalicə alır.



Onlardan 258 nəfəri Respublika Narkoloji Mərkəzində, 288 nəfəri QİÇS-lə Mübarizə Mərkəzində, 121 nəfəri isə Sumqayıt Narkoloji Mərkəzində müalicə olunur.

### "802" qaynar xətti - operativ əlaqələndirmə mexanizmi

Narkomanlığın və narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınmasında vətəndaş müraciətlərinin operativ qəbulu və aidiyyəti qurumlara yönləndirilməsi də mühüm əhəmiyyət daşıyır.

2026-cı ilin yanvar-iyul aylarında "802" qaynar xəttinə 548 vətəndaş müraciəti daxil olmuşdur. Müraciətlərin 77-si narkotik vasitələrin qanunsuz dövriyyəsi, 41-i narkotik asılılıqdan müalicə, 430-u isə digər məsələlərlə bağlı olmuşdur. Müraciətlər üzrə tədbirlərin görülməsi məqsədilə aidiyyəti dövlət orqanlarına 118 məktub göndərilmişdir.

Qaynar xətt vasitəsilə daxil olan məlumatlar əsasında müvafiq tədbirlər görülmüş, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı məlumatlar üzrə cinayət işləri başlanılmış, eyni zamanda narkotik istifadəçilərinin müalicəyə yönləndirilməsi və ailələrə psixoloji dəstəyin göstərilməsi təmin edilmişdir.

### Maarifləndirmə və profilaktika mübarizənin əsas istiqamətlərindən biridir

Narkomanlığın qarşısının alınmasında profilaktik və maarifləndirici tədbirlər xüsusi əhəmiyyət daşıyır. Bu istiqamətdə dövlət qurumları, gənclər təşkilatları və digər tərəfdaş qurumlarla birgə müxtəlif layihələr həyata keçirilir.

2026-cı ilin yanvar-iyul aylarında ümumilikdə 219 tədbir keçirilmişdir. Onlardan 154-ü maarifləndirici və təşkilati tədbir və təlim, 65-i isə maarifləndirici sosial aksiya olmuşdur.

Gənclər arasında sağlam həyat tərzinin təşviqi məqsədilə"Səyyar Gənclər Xidməti" layihəsi çərçivəsində 20 şəhər və rayonun 173 kəndində 7 100 məktəblinin iştirakı ilə maarifləndirici tədbirlər həyata keçirilmişdir.

Hesabat dövrü ərzində narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə rayon və şəhər komissiyaları tərəfindən qarşıya qoyulan işlərin yerinə yetirilməsi ilə əlaqədar bir sıra qabaqlayıcı tədbirlər həyata keçirilmişdir. Yetkinlik yaşına çatmayanların və gənclərin təlim-tərbiyəsinə, məşğulluğuna, asudə vaxtlarının səmərəli təşkilinə diqqətin artırılması, idman, incəsənət və ictimai faydalı əməklə məşğul olmaları üçün müvafiq şərait yaradılmış, eyni zamanda təbliğat və təşviqat işinin əhatəsi gücləndirilmişdir. Təşkil olunan tədbirlərə müvafiq dövlət və qeyri-hokumət təşkilatların nümayəndələri, ərazi üzrə polis şöbələrin əməkdaşları, din xadimləri, könüllülər cəlb edilmişdir. Maarifləndirmə işi kütləvi informasiya vasitələri və rəqəmsal platformalar vasitəsilə də genişləndirilmişdir. Hazırlanmış sosial çarxlar televiziya kanallarında 7 389 dəfə yayımlanmış, narkomanlığa qarşı mübarizə mövzusunda 64 televiziya verilişi hazırlanmışdır. "802 - Qaynar xətt" xidmətinə dair sosial çarx radio yayımlarında 10 146 dəfə səsləndirilmişdir. Qəzet və veb-saytlarda 10 mindən çox maarifləndirici material dərc edilmişdir.

Əhali arasında maarifləndirmənin genişləndirilməsi məqsədilə 2026-cı ilin ilk yeddi ayında 15 mindən çox material yayılmış, 26 şəhər və rayon icra hakimiyyətinə və Penitensiar Xidmətə 140 maarifləndirici banner təqdim edilmişdir. Mobil rabitə operatorları tərəfindən hazırlanan maarifləndirici SMS mesajı isə ölkə üzrə təqribən 8 milyon 621 min abunəçiyə göndərilmişdir.

### Dövlət proqramı üzrə monitorinq və qiymətləndirmə

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi ilə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun birgə əməkdaşlığı çərçivəsində "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı"nın icra vəziyyəti öyrənilib. Bu məqsədlə 2025-ci il üzrə monitorinq və qiymətləndirmə aparılıb.

Monitorinq çərçivəsində dövlət proqramının dörd prioritet istiqaməti üzrə icra dinamikası təhlil edilib. Belə ki, "Təşkilati tədbirlər" istiqaməti 83,31 faiz, "Normativ-hüquqi bazanın təkmilləşdirilməsi" istiqaməti 100 faiz, "Beynəlxalq tədbirlər" istiqaməti 92,31 faiz, "Profilaktika və maarifləndirmə tədbirləri" istiqaməti isə 91,68 faiz icra göstəricisi ilə qiymətləndirilib.

Hazırda Dövlət Proqramının icra vəziyyətinin öyrənilməsi məqsədilə 2026-cı ilin birinci yarımili üzrə növbəti monitorinq və qiymətləndirmə işləri aparılır.

### Nəticə

Azərbaycan Respublikasında narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə ardıcıl, sistemli və kompleks xarakter daşıyır. Hüquq-mühafizə tədbirləri ilə yanaşı, tibbi müayinə və müalicə, reabilitasiya, maarifləndirmə, gənclərlə profilaktik iş, media və rəqəmsal platformalardan istifadə, eləcə də vətəndaş müraciətlərinin operativ cavablandırılması vahid mübarizə strategiyasının əsas istiqamətlərini təşkil edir.

2026-cı ilin yanvar-iyul aylarının nəticələri göstərir ki, narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilmiş, külli miqdarda narkotik vasitələr qanunsuz dövriyyədən çıxarılmış, çoxsaylı cinayət faktları aşkar edilmiş və təqsirkar şəxslər məsuliyyətə cəlb olunmuşdur. Eyni zamanda narkotik asılılığından əziyyət çəkən şəxslərin müalicəyə cəlb edilməsi və əhali arasında sağlam həyat tərzinin təşviqi istiqamətində də mühüm işlər görülmüşdür.

Növbəti mərhələdə də dövlət proqramında müəyyən edilmiş məqsəd və vəzifələrə uyğun olaraq dövlət qurumları arasında qarşılıqlı fəaliyyətin daha da gücləndirilməsi, qabaqcıl təcrübənin tətbiqi, profilaktik və maarifləndirici tədbirlərin əhatə dairəsinin genişləndirilməsi, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə mexanizmlərinin təkmilləşdirilməsi, habelə müalicə və reabilitasiya imkanlarının inkişaf etdirilməsi bu sahədə qarşıda duran əsas vəzifələrdən olacaqdır.

Narkomanlığa qarşı mübarizə yalnız dövlət qurumlarının deyil, bütövlükdə cəmiyyətin ümumi məsuliyyətidir. Sağlam gələcəyin təmin edilməsi üçün dövlət, vətəndaş cəmiyyəti, ailə, təhsil müəssisələri, media və ictimaiyyətin birgə səylərinin davam etdirilməsi mühüm əhəmiyyət daşıyır.

***Fəqan ŞAHVERDİYEV,***
***Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun rəhbəri***

# Baş prokuror Şəki rayonunda vətəndaşları qəbul edib və xidməti mənzillərə baxış keçirib



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.

Baş Prokurorluğun Mətbuat xidmətinin verdiyi məlumata görə, avqustun 25-də baş prokuror Kamran Əliyev Şəki Rayon Prokurorluğunun inzibati binasında Şəki, Oğuz, Qəbələ rayonları və Mingəçevir şəhərindən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rayonun mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak etmiş 28 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Daha sonra Şəki rayonunda xidmət aparan prokurorluq əməkdaşlarının istifadəsi üçün nəzərdə tutulan, təmiri başa çatdırılan, habelə zəruri mebel və avadanlıqlarla təchiz olunmuş xidməti mənzillər istifadəyə verilib.

Baş prokuror mənzillərə baxış keçirərək burada yaradılmış şəraitlə yerində tanış olub və əməkdaşların sosial-məişət təminatının gücləndirilməsi məqsədilə görülən işləri yüksək qiymətləndirib.

Baş prokuror burada yaradılmış şəraitin Prezident cənab İlham Əliyevin prokurorluq əməkdaşlarına göstərdiyi diqqət və qayğının bariz nümunəsi olduğunu qeyd edərək, buna görə dövlət başçısına təşəkkürünü ifadə edib. Bildirib ki, görülən tədbirlər regionlarda çalışan prokurorluq əməkdaşlarının yaşayış və xidmət şəraitinin yaxşılaşdırılmasına, onların xidməti vəzifələrini səmərəli həyata keçirməsi üçün zəruri imkanların yaradılmasına xidmət edir.

Prokurorluq əməkdaşlarının sosial təminatının gücləndirilməsi və xidmət üçün zəruri infrastrukturun inkişaf etdirilməsi istiqamətində tədbirlər bundan sonra da davam etdiriləcək.

# Rəqəmsal inkişafın mərkəzində duran Azərbaycan reallığı

Sürətlə qloballaşan və texnoloji tərəqqinin həlledici rol oynadığı qlobal sistemdə hər bir dövlətin gələcək taleyi onun rəqəmsal transformasiya proseslərinə necə inteqrasiya olmasından asılıdır.



Azərbaycan da bu reallığı dərk edərək qarşısına çox mühüm və strateji bir hədəf qoyub. Bu hədəfin mahiyyəti ölkəmizi modernləşdirməklə yanaşı, bütün regionda süni intellekt və rəqəmsal inkişaf sahələrinin qeyd-şərtsiz aparıcı dövlətinə çevirməkdir. Bu uzaqgörən strategiya elm və texnologiyanın inkişafını, yeni ideyaların dəstəklənməsini və dəyişən dünyaya tez uyğunlaşmağı tələb edir.

XXI əsrin birinci yarısı informasiya texnologiyalarının bəşəriyyətin həyat tərzini kökündən dəyişdiyi bir dönəmdir. Ənənəvi yanaşmalar artıq öz aktuallığını itirir və onların yerini yüksək intellektual sistemlər tutur. Bu sistemlərin zirvəsində isə məhz süni intellekt qərarlaşır. Müasir dövrdə süni intellekt elementləri iqtisadiyyatdan tutmuş dövlət idarəçiliyinə, müdafiə sənayesindən səhiyyəyə qədər bütün sahələrə dərindən nüfuz edib.

Qeyd edək ki, bu istiqamətdə ölkəmizdə həyata keçirilən sistemli tədbirlər çərçivəsində təsdiq edilən 2025-2028-ci illər üçün "Süni İntellekt Strategiyası" və "Rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı" milli texnoloji potensialın möhkəmləndirilməsində mühüm hüquqi-strateji baza rolunu oynayır. Ölkədə idarəetmə effektivliyini artırmaq məqsədilə təsis edilən Rəqəmsal İnkişaf Şurası isə rəqəmsallaşma siyasətinin vahid mərkəzdən əlaqələndirilməsini təmin edir. Bu prosesin mahiyyətini və cəmiyyət qarşısında qoyduğu yeni vəzifələri qiymətləndirərkən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə keçirilən Rəqəmsal İnkişaf Şurasının ilk iclasında səsləndirdiyi fikirlər gələcək inkişafın əsas istiqamətlərini müəyyənləşdirir: "Süni intellekt artıq gələcəyin deyil, bu günün əsas inkişaf amilidir. Eyni zamanda süni intellektin dövlətlərin təhlükəsizliyinin təmin edilməsində rolu artmaqdadır və artıq mərkəzi yer tutur. Sirr deyil ki, dünyanın aparıcı dövlətlərində süni intellektin inkişafı gözlənilən proqnozlardan daha sürətli gedir və bu, öz növbəsində həm yeni imkanlar, eyni zamanda yeni təhlükələr yaradır. Biz yeni çağırışlara, xüsusilə kibertəhlükəsizlik və informasiya təhlükəsizliyi sahəsində olan və yaranan risklərə hazır olmalıyıq".

Rəqəmsal inkişaf və süni intellekt böyük imkanlar yaradır, həmçinin kiberhücum risklərini artırır və dövlətin informasiya təhlükəsizliyini gücləndirməsini zəruri edir. Azərbaycan bu çağırışlar çərçivəsində özünün milli təhlükəsizlik strategiyasını müasir standartlara uyğun şəkildə təkmilləşdirir. İnformasiya təhlükəsizliyinin qorunması, ciddi infrastruktur obyektlərinin kiberhücumlardan müdafiə olunması və yerli kadr potensialının intellektual səviyyədə yetişdirilməsi dövlət siyasətinin əsas prioritetləri sırasındadır. Hətta qəbul edilən yeni idarəetmə sistemlərinə əsasən, hər bir dövlət qurumunda rəqəmsallaşma və kibertəhlükəsizliyə cavabdeh məsul şəxslərin təyin edilməsi bu təhlükəsizlik baryerinin nə qədər ciddi qurulduğunu göstərir. Ölkəmiz rəqəmsal xəritədə öz mövqelərini möhkəmləndirdikcə həm də regional miqyasda sabitliyin və təhlükəsizliyin qarantına çevrilir.

Beləliklə, Azərbaycanın rəqəmsal inkişaf yolu böyük fürsətlərlə zəngindir. Eyni zamanda bu yol yüksək məsuliyyət tələb edən çağırışlar da ehtiva edir. Ölkəmizin regionun aparıcı süni intellekt mərkəzinə çevrilməsi istiqamətində qətiyyətli addımlar atılır. Bu addımlar xalqımızın intellektual potensialına və dövlətimizin siyasi iradəsinə əsaslanır. Yeni texnologiyaların verdiyi imkanlardan maksimum dərəcədə faydalanmaq vacibdir. Bununla yanaşı, ehtimal olunan risklərə qarşı ayıq-sayıq olmaq və qabaqlayıcı tədbirlər görmək zəruridir. Bütün bunlar Azərbaycanın davamlı tərəqqisinin ayrılmaz hissəsini təşkil edir.

***Təhminə VERDİYEVA,***
***"Azərbaycan"***

# Azərbaycan Mərkəzi Asiya ilə Avropa arasında "yaşıl" körpü olacaq

Azərbaycan və Özbəkistan arasında iqtisadi əməkdaşlığın əsas qollarından biri enerji sektorudur. Ənənəvi enerji sahəsində uzun müddətdir davam edən əlaqələr son illərdə bərpaolunan enerji layihələri ilə xeyli şaxələnib. Bu növ enerjinin istehsalı və Avropa bazarlarına ixracı iki ölkənin əməkdaşlığında yeni perspektivlər yaradır.



Azərbaycanla Özbəkistan arasında "yaşıl enerji" tərəfdaşlığından danışarkən iki il əvvələ qayıtmaq lazım gəlir. Belə ki, 2024-cü il noyabrın 13-də COP29 çərçivəsində üç ölkənin dövlət başçıları "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalayıb. 2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanmasını da xatırladaq. Bu sazişə əsasən, Qara dənizin dibi ilə "yaşıl enerji" kabeli çəkiləcək. Bir sözlə, Mərkəzi Asiya, Qafqaz, Avropa, Xəzər və Qara dəniz vahid enerji dəhlizi ilə birləşdiriləcək.

Prezident İlham Əliyev Özbəkistana dövlət səfəri ərəfəsində bu ölkənin Milli İnformasiya Agentliyinə verdiyi müsahibəsində həmin istiqamətdə əməkdaşlıqdakı yenilikləri diqqətə çatdırıb: "Yaşıl enerji" sahəsində əməkdaşlığımız da davam edir. 2025-ci ildə Azərbaycan, Qazaxıstan və Özbəkistanın müvafiq energetika idarələri tərəfindən Bakıda "Yaşıl Dəhliz Birliyi" Məhdud Məsuliyyətli Cəmiyyəti təsis olunub. Bu birgə müəssisə Azərbaycan-Mərkəzi Asiya "yaşıl enerji" dəhlizi layihəsinin həyata keçirilməsini, bərpaolunan enerji ixracını və onun Xəzər dənizinin dibi ilə nəqli imkanlarını əlaqələndirmək məqsədilə yaradılıb".

Xəzərin dibi ilə Azərbaycanın, Qazaxıstanın və Özbəkistanın birlikdə yaradacağı "yaşıl dəhliz" üçün bu ölkələrin hər birinin böyük potensialı var.

Azərbaycanın "yaşıl gündəliy"i artıq bütün dünyaya bəllidir. Ölkəmizin "yaşıl enerji" potensialı quruda 135 QVt, dənizdə isə 157 QVt olaraq qiymətləndirilir. İl ərzində yurdumuzda günəşli saatların sayı 2400-3200 təşkil edir.

Külək enerjisinə gəldikdə isə quruda 3 QVt-a yaxın texniki potensial mövcuddur. Bu xüsusilə Xəzər dənizi sahilində və Abşeronda güclüdür. 2030-cu ilə qədər artıq imzalanmış investisiya müqavilələri əsasında ölkəmizdə ən azı 6 qiqavatlıq "yaşıl enerji" - günəş, külək və su-elektrik enerjisi istehsal ediləcək.

Bildiyimiz kimi, Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası Prezident İlham Əliyev tərəfindən "yaşıl enerji" zonası elan olunub.

Özbəkistanda da bu istiqamətdə genişmiqyaslı işlər aparılır. Beynəlxalq Enerji Agentliyinin hesabatına görə, Özbəkistanın illik tələbatından 30 dəfə çox - 2091 milyard kilovat/saat elektrik enerjisi istehsal etmək potensialı var. Ölkənin iqlimi ildə 320 günəşli günün olması ilə səciyyələnir . Bu isə böyük həcmdə alternativ enerji istehsalına imkan yaradır. Surxandərya, Buxara və Kaşkadərya vilayətləri coğrafi baxımdan elə bir iqlim qurşağında yerləşir ki, bu regionlarda ümumilikdə 2058 milyard kilovat/saat günəş enerjisi hasil etmək olar.

Özbəkistanın külək enerjisinin də potensialı böyükdür. BMT-nin "yaşıl enerji"nin inkişafına dair hazırladığı hesabatda vurğulanır ki, Özbəkistanın şimal-qərb və cənub-qərb əraziləri 9,9 milyard kilovat/saat külək enerjisi istehsal etmək iqtidarındadır.

"Yaşıl enerji"nin inkişafı üçün Özbəkistanda böyük proqram qəbul edilib. Son 5 il ərzində Özbəkistan Prezidenti "yaşıl enerji"nin inkişaf etdirilməsi üçün 15 sərəncam imzalayıb. Hökumət "yaşıl enerji" potensialını düzgün qiymətləndirərək müxtəlif xarici şirkətlərlə 20-dən çox müqavilə imzalayıb. Bütün bunlar Özbəkistana enerji istehsalını artıraraq onu ixrac etməyə şərait yaradıb.

Azərbaycanın coğrafi mövqeyi Mərkəzi Asiyada istehsal olunan "yaşıl enerji"nin Qafqaz və Avropa istiqamətində ötürülməsinə imkan verir. Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi üzrə əməkdaşlığın ən mühüm layihələrindən biri məhz "Mərkəzi Asiya-Azərbaycan Yaşıl Enerji Dəhlizi"dir.

Xatırladaq ki, üç ölkənin enerji sistemlərinin əlaqələndirilməsi məqsədilə 2024-cü ildə razılıq əldə edilib. Keçən il isə hər üç ölkə Asiya İnkişaf Bankı və Asiya İnfrastruktur və İnvestisiya Bankı ilə birlikdə "Xəzər Yaşıl Enerji Dəhlizi"nin texniki-iqtisadi əsaslandırılmasına dəstək haqqında memorandum imzalayıb. Cari ilin əvvəlində layihənin birinci mərhələsi üzrə texniki-iqtisadi əsaslandırma işlərinə başlanılıb və Bakıda bu istiqamətdə ilkin seminar keçirilib. Layihənin əsas məqsədi Mərkəzi Asiyada istehsal olunan bərpaolunan elektrik enerjisinin Xəzər dənizi üzərindən Azərbaycana, daha sonra isə Qara dəniz vasitəsilə Avropaya çatdırılmasıdır.

İqtisadçı-ekspert, neft-qaz məsələləri üzrə tədqiqatçı İlham Şaban və ölkəmizin digər enerji mütəxəssisləri bu cür təşəbbüslərin Azərbaycanın ənənəvi karbohidrogen ixracatçısı olmaqla yanaşı, gələcəkdə qlobal miqyasda mühüm "yaşıl enerji" tranziti və təmiz enerji mərkəzinə çevrilməsində mühüm rol oynayacağını vurğulayırlar.

Özbəkistanın "yaşıl enerji" layihələri üzrə mütəxəssisi Furkat Kurbonov da bildirir ki, Azərbaycanın bu əməkdaşlıqda əsas üstünlüklərindən biri onun coğrafi mövqeyidir: "Özbəkistan Mərkəzi Asiyanın daxilində yerləşdiyi halda, Azərbaycan Xəzər dənizinin qərb sahilində yerləşərək Mərkəzi Asiya ilə Cənubi Qafqaz və Avropa arasında enerji körpüsü rolunu oynayır. Azərbaycan və Özbəkistan arasında alternativ enerji sahəsində əməkdaşlıq iki ölkənin enerji siyasətində yeni mərhələ yarada bilər. Özbəkistanın günəş və külək enerjisi potensialı ilə Azərbaycanın Xəzər və Cənubi Qafqaz üzərindən Avropaya çıxış imkanlarının birləşdirilməsi gələcəkdə mühüm regional enerji platformasının formalaşmasına səbəb ola bilər".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Daha çox turistdən daha geniş turizmə

## Azərbaycanın 2026-2030-cu illər üçün yeni turizm strategiyası bu sahədə keyfiyyət və rəqabətlilik mərhələsini hədəfləyir

**Bu** gün dünyada turizm səyahət və istirahət çərçivəsini çoxdan aşıb. Qlobal iqtisadi tərəqqi, geosiyasi proseslər, iqlim dəyişmələri və texnologiyanın sürətli yüksəlişi turizm sektorunun qarşısında yeni tələblər formalaşdırır. Müasir turistin seçimləri tez-tez dəyişir, yeni səyahətçi seqmentləri meydana çıxır. Və bütün bunlar ölkələrin turizm siyasətinə yeni yanaşmalar gətirir.



Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında turizmin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" məhz bu sadalananların fonunda ölkənin turizm sektorunun qarşıdakı dövr üçün inkişaf istiqamətlərini müəyyənləşdirir. Sənəddə turizm ölkə iqtisadiyyatının mühüm istiqamətlərindən biri kimi qiymətləndirilir. Eləcə də regionlarda yeni imkanlar yaratması, məşğulluğu artırması və neftdənkənar sahənin inkişafını sürətləndirməsi hədəflənir. Turizmin Azərbaycanın beynəlxalq səviyyədə tanıdılmasında mühüm rol oynadığı vurğulanır.

Sənədin ilk hissəsindən aydın görünür ki, Azərbaycanın yeni turizm siyasəti yalnız turist sayının artırılmasına hesablanmayıb. Burada əsas məqsəd daha rəqabətqabiliyyətli, dayanıqlı, rəqəmsal və şaxələndirilmiş turizm modeli formalaşdırmaqdır. Dünya turizmində müşahidə olunan yeni meyillər göstərir ki, müasir turist artıq yalnız istirahət üçün məkan axtarmır. O, keyfiyyətli xidmət, fərdi təcrübə, təhlükəsizlik, ekoloji məsuliyyət və rəqəmsal rahatlıq gözləyir. Dövlət proqramı da məhz bu dəyişən tələblərə uyğunlaşmanı, Azərbaycanın ayrı-ayrı bölgələrinin vahid turizm destinasiyalarına çevrilməsini və turizmin ölkənin iqtisadi inkişafında daha böyük paya sahib olmasını nəzərdə tutur. Məqsəd təkcə ayrı-ayrı turizm obyektlərini inkişaf etdirməkdən ibarət deyil. Əsas hədəf bölgələrdə bu sahə üçün mövcud olan imkanları birləşdirərək onları cəlbedici və dayanıqlı turizm məkanlarına çevirməkdir.

Dövlət proqramının növbəti hissəsində isə indiyədək həyata keçirilən tədbirlər və əldə olunan nəticələr diqqətə çatdırılır. Görülən işlər turizm sahəsində idarəetmə sisteminin gücləndirilməsinə, biznes mühitinin yaxşılaşdırılmasına, ölkənin turizm imkanlarının beynəlxalq səviyyədə tanıdılmasına yönəlib. Viza rejiminin sadələşdirilməsi, hava əlaqələrinin genişləndirilməsi, milli turizm brendinin formalaşdırılması, mədəni və təbiət marşrutlarının yaradılması, kənd və sağlamlıq turizminin inkişafı bu istiqamətdə atılan əsas addımlar sırasındadır. Qarabağ və Şərqi Zəngəzurda turizm infrastrukturunun qurulması da sektorun gələcək inkişafı baxımından yeni imkanlar yaradır.

Bu siyasətin nəticələri turizmin iqtisadi göstəricilərində də özünü göstərir. 2025-ci ildə turizm üçün xarakterik sahələrdə yaradılan əlavə dəyər 7 milyard manata yaxınlaşıb, sektorun iqtisadiyyatda payı 5,4 faizə yüksəlib. Xüsusilə qeyd edək ki, turizm xidmətlərinin ixracından ölkəyə əhəmiyyətli həcmdə xarici valyuta daxil olub ki, nəticədə məşğulluq artıb. Bu göstəricilər turizmin artıq ölkə iqtisadiyyatında xeyli dərəcədə yer tutduğunu göstərir.

Yalnız bunlarmı? Əlbəttə ki, dövlət proqramı turizmdə əldə olunan nəticələrlə kifayətlənmir və qarşıda duran problemləri də müəyyənləşdirir. Azərbaycanın turizm baxımından əlçatanlığının artırılması, turist bazarlarının şaxələndirilməsi, mövsümiliyin azaldılması, investisiyaların genişləndirilməsi, peşəkar kadr hazırlığının və xidmət keyfiyyətinin yüksəldilməsi əsas məsələlər sırasında göstərilir. Beləliklə, sənəd bir tərəfdən Azərbaycanın turizm sektorunda son illər formalaşan inkişaf dinamikasını ortaya qoyur, digər tərəfdən isə növbəti mərhələdə görülməli işlərin istiqamətini müəyyənləşdirir.

Dövlət proqramında turizm sektorunun inkişafını sürətləndirəcək konkret dəstək və təşviq mexanizmlərinin yaradılması da nəzərdə tutulur. Bu baxımdan xüsusilə sahibkarlığın dəstəklənməsi, investisiyaların artırılması və regionların turizm potensialının hərəkətə gətirilməsi diqqət çəkir. Belə ki, bu sahədə fəaliyyət göstərən mikro və kiçik sahibkarlıq subyektlərinə, ölkəyə əcnəbi turist gətirən turoperatorlara və yerləşmə infrastrukturu yaradan investorlara subsidiya dəstəyinin verilməsi planlaşdırılır. Çarter reyslərinin təşkilinə çəkilən xərclərin kompensasiyası üçün də yeni subsidiya mexanizminin yaradılması nəzərdə tutulur. Bu addımların əsas məqsədi turizm biznesinin genişlənməsinə, ölkəyə turist axınının artırılmasına və regionlarda yeni turizm imkanlarının formalaşmasına əlavə stimul verməkdir.

Proqramda 2027-2030-cu illərdə üç yeni turizm və rekreasiya zonasının yaradılması da nəzərdə tutulur. Bununla yanaşı, turizm sənayesində innovasiyaların təşviqi üçün müsabiqələrin keçirilməsi və seçiləcək pilot layihələrə dəstək göstərilməsi planlaşdırılır. Beləliklə, dövlət dəstəyi yalnız mövcud turizm imkanlarının genişləndirilməsinə deyil, həm də yeni ideyaların, müasir xidmətlərin və innovativ layihələrin sektora gətirilməsinə yönəlir.

Göründüyü kimi, dövlət proqramında nəzərdə tutulan əsas məsələ ölkəyə gələn hər bir turist üçün daha keyfiyyətli və fərqli təcrübə yaratmaq, regionların turizm potensialını iqtisadi dəyərə çevirmək və bu sahənin yaratdığı faydanı cəmiyyətin daha geniş təbəqələrinə çatdırmaqdır. Təbii ki, bu tədbirlərin ardıcıl həyata keçirilməsi Azərbaycanın həm daxili, həm də beynəlxalq turizm bazarında mövqeyini daha da gücləndirəcək. Qlobal trendlərə uyğunlaşan, innovasiyalara açıq və təbii-mədəni irsi qoruyan turizm modeli isə ölkənin dayanıqlı iqtisadi inkişafının yeni dayaqlarından birinə çevrilmək imkanına malikdir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

**26 Avqust Beynəlxalq Azərbaycan Muğamı və Musiqisi Günüdür**

# Mədəniyyət xəzinəmizin əbədi inciləri

Muğamlarımız milli yaddaşımızın, tariximizin, mədəniyyətimizin, dünyagörüşümüzün, düşüncələrimizin ən ülvi təcəssümüdür. Muğamlarımız xalqımızın min illər boyu keçib gəldiyi və bu günündən gələcəyinə uzanan yoluna yoldaşdır.



Zamanın sınağından keçərək bu günümüzə gəlib çatan muğamı xanəndələr, musiqiçilər öz ifaları ilə daha da cilalayıb, bu sənətin ənənələrini nəsildən-nəslə ötürüblər. Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski, Xan Şuşinski, Yavər Kələntərli, Rübabə Muradova, Əbülfət Əliyev, Hacıbaba Hüseynov, İslam Rzayev, Əlibaba Məmmədov, Arif Babayev və başqa böyük sənətkarların yaratdığı məktəb bu gün də yaşayır.

Muğam sənətinin yolu hamar olmayıb, çox çətin və mürəkkəb mərhələlərdən keçib. Xüsusilə sovet hakimiyyətinin sərt dövrlərində, 1930-cu ildən 1970-ci iləcək muğam sənətini bəsit, primitiv hesab edənlər olub. Lakin xalqın könlündə yaşatdığı, yaddaşında qoruduğu bu sənəti nə gözdən salmaq, nə də unutdurmaq mümkün olub. Muğam hər yeni ifaçının yaradıcılığında sanki yenidən doğulub.

Yalnız Azərbaycanda, Şərq ölkələrində deyil, dünyada sevilən muğam bəşəriyyətin mənəvi irsinin dəyərli xəzinələrindəndir. Hələ 1971-ci ildə UNESCO-nun 50 albomdan ibarət "Dünya ənənəvi musiqisinin antologiyası" kolleksiyasına "Şərqin musiqi antologiyası" seriyasında çıxan "Azərbaycan musiqisi" plastinkasını daxil etməsi bunun bariz nümunəsidir. Azərbaycan muğamları 1975-ci ildə UNESCO tərəfindən "Musiqi mənbələri" seriyasında buraxılıb. 1977-ci ildə ABŞ Milli Kosmik Agentliyi Azərbaycanın milli sərvəti olan muğam musiqi nümunəsini peyklə kosmosa göndərib.

Hər ilin bu günü - 26 avqust Beynəlxalq Azərbaycan Muğamı Günü və İpək yolu üzərində yerləşən ölkələrin musiqisi günü kimi qeyd olunması da bu sənətə qlobal maraqdan xəbər verir. Bu barədə qərar 2010-cu ildə Kanadanın Niaqara şəhərinin meriyası və ənənəvi olaraq hər il keçirilən Beynəlxalq Niaqara Musiqi Festivalının rəhbərliyi tərəfindən qəbul olunub. O vaxtdan həmin gün bütün muğamsevərlərin, xüsusən, bu sənətin dəyərini bilən, qoruyub yaşadanların, təbliğ edənlərin bayramıdır.

Tarixin keşməkeşli yollarından keçmiş muğam sənətimiz bu gün həm öz vətənində, həm də dünyada layiq olduğu kimi sayılıb-seçilir, sevilir. Milli-mənəvi irsimizin digər nümunələri kimi, muğam sənətimizin qorunmasına, yaşadılmasına, inkişafına və təbliğinə dövlətimiz tərəfindən diqqət və qayğı göstərilir. Ölkəmizdə uzun illərdir həyata keçirilən tədbirlər, ənənəyə çevrilmiş muğam müsabiqələri, festivalları və digər layihələr də bu münasibətin nəticəsidir.

Ölkəmizin paytaxtında Beynəlxalq Muğam Mərkəzinin yaradılması muğam sənətinin təbliği və ifa ənənələrinin yaşadılması baxımından mühüm hadisə idi. Bundan başqa, regionlarda Muğam mərkəzlərinin yaradılmasına dəstək verən Heydər Əliyev Fondunun təşəbbüsü ilə Ağcabədi şəhərində də Qarabağ Muğam Mərkəzi fəaliyyət göstərir.

Azərbaycan muğamının inkişafı və dünyada tanıdılması məqsədilə Heydər Əliyev Fondu tərəfindən müxtəlif müsabiqələr, beynəlxalq festivallar təşkil edilir. Bunlardan biri də dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin 120 illik yubileyi münasibətilə 2005-ci ildən keçirilən Muğam Televiziya müsabiqəsidir. Ənənəyə çevrilmiş bu tədbir muğamlarımızın təbliği və gənc ifaçıların üzə çıxarılmasında mühüm rol oynayır.

Müasir dünyada Azərbaycan muğamının tanıdılması, xalqımızın ənənəvi musiqi sənətininin dünya musiqi irsində layiq olduğu yeri tutması üçün 2009-cu ildə Novruz bayramı ərəfəsi respublikamızın paytaxtında Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilati dəstəyi ilə "Muğam aləmi" Beynəlxalq Muğam Festivalı keçirilib. Bu tədbir də ən uğurlu layihələrdən biri olaraq ənənəyə çevrilib. "Muğam aləmi" Beynəlxalq Muğam Festivallarında dünyanın müxtəlif ölkələrindən tanınmış musiqiçi və tədqiqatçılar iştirak edirlər. Festivallar çərçivəsində həm Bakıda, həm də ölkəmizin bir çox bölgələrində Azərbaycanın və xarici musiqiçilərin iştirakı ilə konsertlər keçirilir, beynəlxalq muğam müsabiqəsi, beynəlxalq elmi simpozium və ustad dərsləri təşkil olunur.

Ümumiyyətlə, Heydər Əliyev Fondu muğam sənətinin qorunub saxlanılması, zəngin tarixə malik ifaçılıq sənətinin gələcək nəsillərə çatdırılması, yeni ifaçılar nəslinin yetişdirilməsi istiqamətində təqdirəlayiq işlər görür. 2008-ci ildə Azərbaycan, rus və ingilis dillərində "Azərbaycanın muğam ensiklopediyası"nın (iki cilddə), "Azərbaycan muğamları" layihəsi çərçivəsində "Qarabağ xanəndələri" musiqi albomunun nəfis şəkildə nəşr olunması həmin saysız işlərin yalnız ikisidir.

Qeyd edək ki, musiqiçilərimizin və xanəndələrimizin də Azərbaycan muğam sənətinin dünyada tanıdılmasında xidmətləri təqdirəlayiqdir. Onlar dünyanın bir çox ölkəsinin konsert salonlarında çıxış edərək, fərqli dilə və milli mənsubiyyətə mənsub olan tamaşaçılara muğamlarımızı sevdirə bilirlər.

Muğam sənətinin ən böyük xüsusiyyətlərindən biri onun ənənəyə sadiqliyi qədər də yeniliyə meyilli olmasıdır. Bu sənət bir məcrada qalmır. Ustad xanəndələr öz məktəblərini yaradırlar, bəstəkarlar isə muğamın imkanlarını yeni musiqi janrları ilə birləşdirirlər. Üzeyir bəy Hacıbəylinin yaradıcılığından başlayaraq, Fikrət Əmirovun simfonik muğamlarına, Vaqif Mustafazadənin caz improvizələrinə və başqa bəstəkarlarımızın yaratdıqları müxtəlif janrlı əsərlərə qədər muğamın zəngin və tükənməz sənət mənbəyi olduğunu göstərir.

Muğam xalqımızın yaddaş kitabıdır. Bu kitabın səhifələrində Qarabağın, Şuşanın, Bakının və digər yerlərimizin qədim musiqi məclislərinin, ustad xanəndələrin, tar və kamança ifaçılarının adları var. Onların ifaları əsrləri aşaraq bu gün də yaşayır.

Muğamın hər pərdəsində, hər boğazında xalqımızın ruhu var. Bu ruh yaşadıqca muğam da yaşayacaq. Muğam yaşadıqca isə Azərbaycan xalqının zəngin milli-mənəvi yaddaşı gələcək nəsillərə ötürüləcək.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Qarabağın və Şərqi Zəngəzurun ilk beynəlxalq film festivalının açılışı olub

Avqustun 25-də Laçın şəhərində Beynəlxalq Film Festivalının (Lachin International Film Festival - LIFF) açılış mərasimi olub.




AZƏRTAC xəbər verir ki, "Where Film Meets LIFE" şüarı ilə keçirilən festival Qarabağın və Şərqi Zəngəzurun ilk beynəlxalq film festivalıdır. Tədbir regionun mədəni həyatında yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilir.

Festivalda nümayiş olunmaq üçün 47 ölkədən 300-ə yaxın film təqdim edilib. Onlardan 38-i festivalın əsas proqramına daxil edilib. Festival çərçivəsində həmçinin 18 yerli film də nümayiş olunub. Tədbirdə əvvəlcə filmlərin təqdimat çarxları göstərilib.

Açılış mərasimində çıxış edən Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov festivalın keçirilməsinin xüsusi əhəmiyyət daşıdığını bildirib. O qeyd edib ki, tədbirin 26 Avqust - Laçın Şəhəri Günü ərəfəsində keçirilməsi də rəmzi məna daşıyır. "Yenidən bərpa olunan Laçında həyatın və mədəni həyatın canlanması göz önündədir. Həyat qayıdan torpağa bayram gəlir. Kino sənətinə maraq şəhərin bərpası dövründə Laçın Kino Mərkəzinin yenidən qurulması ilə daha da artıb. Kino Laçının təbiətini və gözəlliklərini tərənnüm edən əsas sənət növlərindən biridir. İnanıram ki, Laçının gözəlliklərindən ilham alan yeni filmlər yaranacaq və bu festival ənənəyə çevriləcək", - deyə M.Məmmədov əlavə edib.

Qarabağ Dirçəliş Fondunun sədri Rəhman Hacıyev Laçının kino və vizual sənət üçün əlverişli məkan olduğunu deyib: "Festival öz potensialını nümayiş etdirmək istəyən yaradıcı insanlar üçün yeni imkanlar yaradır. Biz müxtəlif iqtisadi fəallığın stimullaşdırılmasına dəstək göstəririk. Bu festival həm də Laçının mədəni potensialının mühüm nümunəsidir".

Kinorejissor Ayaz Salayev festival iştirakçılarını birləşdirən əsas amilin kinoya məhəbbət olduğunu söyləyib.

"HochazFilm Creative Studio"nun həmtəsisçisi və direktoru Amil Amal festivalın əsas məqsədlərindən söhbət açıb. "Azərbaycan kinematoqrafçılarının beynəlxalq kino ictimaiyyəti ilə əlaqələrini genişləndirmək, müxtəlif ölkələrdən olan kino peşəkarlarını bir araya gətirmək, yeni yaradıcı əməkdaşlıqlar üçün imkan yaratmaq, Laçının beynəlxalq kino və yaradıcı sənaye məkanı kimi potensialını nümayiş etdirməkdir", - deyə o bildirib.

Daha sonra festivalın münsiflər heyətinin üzvləri çıxış ediblər.

Münsiflər heyətinin sədri Müşfiq Hətəmov 2014-cü ildə çəkdikləri "Qarabağ" filmini xatırladıb. O bildirib ki, film Laçına qayıtmağı yuxusunda görən yaşlı bir insanın həyatından bəhs edir. İndi həmin xəyallar reallaşıb.

Kinorejissor Elçin Musaoğlu bildirib ki, böyük yol kiçik addımlardan başlayır. O, festivalın hər il inkişaf edəcəyinə və regionda belə bir tədbirin keçirilməsinin vacib olduğuna diqqət çəkib.

İranlı rejissor Rza Siami Qarabağa səfər etməyin onun ən böyük arzularından biri olduğunu deyib. O, festivalın münsiflər heyətində yer aldığı üçün xoşbəxt olduğunu bildirib. Əməkdar artist Gülzar Qurbanova festivalın Laçında keçirilməsinin onun üçün xüsusi məna daşıdığını bildirib. "Bu məkanda ayrılıq, həsrət və yenidən qovuşmaq hissləri bir aradadır. Kinonun da qayəsi budur - yaşadıqlarımızı ekrana köçürmək. Filmlərə yalnız texniki meyarlarla deyil, qəlbimdə və ruhumda hansı hissləri oyatması baxımından yanaşıram", - deyə G.Qurbanova əlavə edib.

Münsiflər heyətinin digər üzvləri Laçın Film Festivalının region üçün mühüm hadisə olduğunu qeyd ediblər və "film işığının heç zaman sönməməsini" arzulayıblar.

Tədbir çərçivəsində Xəzər Universitetinin tələbələri musiqi nömrələri ilə çıxış ediblər. Daha sonra festival proqramına daxil olan filmlərin nümayişi keçirilib. Qeyd edək ki, müsabiqənin nəticələrinə əsasən, 7 film Laçın Beynəlxalq Film Festivalının rəsmi mükafatı olan "Qızıl Palıd Budağı"na layiq görüləcək.

Tədbirin keçirilməsinə Laçın rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyi, Mədəniyyət Nazirliyi və onun tabeliyində fəaliyyət göstərən Kino Agentliyi, Qarabağ Dirçəliş Fondu, Bakı Abadlıq Xidməti, Laçın rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti, Azərbaycan Prodüserlər Gildiyası və Laçın Abadlıq Xidməti dəstək verirlər.

**OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!**

**"AZƏRBAYCAN" qəzetinə abunə yazılışı davam edir!**

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


AZƏRBAYCAN
ƏBƏDİ DOSTLUQ
Ş.M.Mirziyoyevin "Heydər Əliyev" ordeni ilə təltif edilməsi haqqında
Prezident İlham Əliyevin sosial media hesablarında Özbəkistana dövlət səfərinə dair videoçarx paylaşılıb
İlham Əliyev Kasım-Jomart Tokayevi təbrik edib
"Biz dost Ukrayna xalqına bundan sonra da humanitar dəstək göstərməyə davam edəcəyik"

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*

# İrəvan Bakının sülh gündəliyi ilə razılaşmağa məcburdur

Ermənistanın Baş naziri Nikol Paşinyanın parlamentdə çıxışı zamanı səsləndirdiyi fikirlər rəsmi Bakının tələb etdiyi hüquqi və siyasi şərtlərin İrəvan tərəfindən qəbul olunduğunun təsdiqidir. Baş nazirin qarşıdakı fəaliyyət proqramını təqdim edərkən verdiyi mesajlar göstərir ki, Ermənistan Azərbaycanın yaratdığı regional reallıqlara uyğunlaşmaqdan başqa alternativinin olmadığını dərk edir.



Diqqətçəkən məqamlardan biri Ermənistanda yeni konstitusiyanın qəbul edilməsi istiqamətində atılan addımlar və bu proses ətrafında gedən müzakirələrdir. Baş nazir açıq şəkildə bildirib ki, yeni konstitusiyanın qəbul edilməsi partiyanın seçki proqramının əsas müddəalarından biri idi. Paşinyan qeyd edib ki, Ermənistan xalqının öz legitim və azad iradəsi ilə qəbul edilmiş konstitusiyaya malik olmaq hüququ var. Hökumət başçısı bu ali sənədin layihəsinin yaxın aylarda dərc olunacağını vurğulamaqla yanaşı, keçmiş separatçı meyillərdən imtina edildiyini konkret fikirlərlə ifadə edib: "Biz bu qərarı qəbul etmişik və xalq da bu qərarı təsdiqləyib. Yeni konstitusiyada Müstəqillik Bəyannaməsinə istinad etmək "Qarabağ hərəkatı"nı davam etdirmək, münaqişə məntiqinə qayıtmaq demək olardı. Biz isə bunu edə bilmərik".

Paşinyan iyunun 7-də keçirilən parlament seçkilərindən sonra xalqın sülhün lehinə səs verdiyini xüsusi vurğulayaraq əlavə edib ki, Azərbaycanla əldə edilmiş sülhün qorunması və möhkəmləndirilməsi hökumət üçün prioritet gündəlikdir. Bakının yekun sülh sazişi üçün əsas tələblərindən biri olan bu addım Ermənistanın münaqişə məntiqindən çıxmaq və Azərbaycanın şərtlərini qəbul etmək məcburiyyətində qaldığını sübut edir.

Baş nazirin çıxışlarında yer alan digər vacib element Azərbaycanın anklav kəndləri ilə bağlıdır. Kərki, Barxudarlı və Yuxarı Əskipara kimi kəndlərin Ermənistanın beynəlxalq səviyyədə tanınmış 29 743 kvadratkilometrlik ərazisinə daxil olmadığını bildirən Paşinyan bu həqiqəti belə izah edib: "Bu kimi məsələlər sərhədlərin delimitasiyası çərçivəsində həll ediləcək. Elə buna görə Kərkidən danışıram. Ona görə yox ki, mən Azərbaycan tərəfdarıyam, ona görə ki, bu gün sülhün hüquqi əsasını təşkil edən xəritələr şübhə altına alınsa, hamı hər şeyi şübhə altına almağa başlayacaq".

1991-ci il xəritələrinə istinad edərək reallığı dilə gətirmək İrəvanın sərhədlərin delimitasiyası prosesində rəsmi Bakının hüquqi mövqeyi ilə razılaşdığını göstərir. İllər boyu işğal altında saxlanılan bu ərazilərin statusunun açıq şəkildə bəyanı Ermənistanın öz ərazi bütövlüyü çərçivəsindən kənara çıxmaq imkanlarının tamamilə tükəndiyini göstərir.

Eyni zamanda İrəvan rəhbərliyinin xaricdəki erməni diasporu ilə bağlı səsləndirdiyi fikirlər Ermənistanın daxili və xarici siyasətindəki dərin çatları üzə çıxarır. Lobbinin ciddi təhdid olduğunun fərqində olan baş nazir "xaricdəki erməni diasporu Ermənistanın yolgöstərəni ola bilməz" deyərək diasporun təlimatları ilə hərəkət etməyəcəyini dilə gətirib. Paşinyanın fikrincə, diaspor Ermənistanın, Ermənistan da diasporun mentoru ola bilməz. Hələ də köhnə ambisiyalardan, revanşizmdən öz siyasi və maliyyə maraqları üçün istifadə edən diaspor mərkəzlərinin təsiri azaltmaq cəhdi Ermənistan hökumətinin öz real maraqlarını köhnə xülyalardan üstün tutmaq məcburiyyətində qaldığını nümayiş etdirir.

Xarici təzyiqləri neytrallaşdırmağa çalışan Paşinyan hökuməti daxildə də revanşist müxalifətə qarşı hərəkətə keçərək öz siyasi mövqelərini möhkəmləndirməyə çalışır. Baş nazir ölkədəki köhnə "Qarabağ klanı"nın təmsilçilərinə və revanşist qüvvələrə qarşı hüquqi müstəvidə sərt addımlar atır. Sabiq prezident Robert Koçaryanın Korrupsiyaya Qarşı Mübarizə Komitəsinə aparılması, özünün, oğlunun və parlamentin deputatı Levon Koçaryanın mənzillərində, obyektlərində axtarışların aparılması daxili siyasi qarşıdurmanın pik nöqtəsidir. Parlamentdə Baş nazir ilə Levon Koçaryan arasında yaşanan sərt mübahisədən dərhal sonra hüquq-mühafizə orqanlarının fəaliyyətə keçməsi İrəvan rəhbərliyinin revanşist ritorikanın və daxili müqavimətin tamamilə qarşısını almaq niyyətində olduğunu nümayiş etdirir.

Bu sərt tədbirlər və müxalifətə qarşı atılan addımlar göstərir ki, Paşinyan regional sülh gündəliyini pozmağa çalışan keçmiş rejimlə hesablaşmanı yekunlaşdırmaqda qərarlıdır. Bu rejimin nümayəndələrini neytrallaşdırmaqla hakimiyyət həm də Azərbaycanla aparılan danışıqlar prosesində daxildən gələ biləcək hər hansı təxribatın qarşısını almağı hədəfləyir. Revanşistlərin sıradan çıxarılması Ermənistan cəmiyyətinə də aydın mesaj verir ki, köhnə münaqişə məntiqinə qayıdış imkansızdır və dövlətin gələcəyi yalnız Bakının təklif etdiyi yeni regional nizamı qəbul etməkdən keçir.

Azərbaycanın 44 günlük müharibədə qazandığı qələbə və sonrakı dönəmdə atdığı qətiyyətli addımlar rəsmi İrəvanı işğalçı ideologiyadan imtina etməyə məcbur etdi. Bu gün Ermənistan rəhbərliyinin dili ilə səslənən etiraflar göstərir ki, Bakının sülh gündəliyi və regional reallıqlar Cənubi Qafqazın gələcək inkişafının yeganə həlledici faktorudur. İrəvanın bu xətdən kənara çıxması mümkün deyil.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# "İstəklilər koalisiyası"nın Kiyev Sammiti: yeni paketlər, köhnə məsələlər

Xəbər verildiyi kimi, Ukraynanın Müstəqillik Günündə Birləşmiş Krallıq və Fransanın həmsədrlik etdiyi dövlətlər birliyi olan "İstəklilər koalisiyası"nın liderləri Rusiyanın silahlı təcavüzünə qarşı mübarizədə və effektiv təhlükəsizlik zəmanətləri hazırlamaqda Ukraynaya dəstək olmaq üçün Kiyevdə toplaşdılar.



Görüşdə 30 tərəfdaş ölkənin liderləri iştirak etmişlər. Böyük Britaniyanın Baş naziri Endi Börnhem, Avropa Şurasının prezidenti Antonio Kosta, Finlandiya Prezidenti Aleksandr Stubb, Litva Prezidenti Gitanas Nauseda, İsveçin xarici işlər naziri Maria Malmör Stenergard, Latviyanın Baş naziri Andris Kulberqs, Lüksemburqun Baş naziri Lük Friden və Moldova Prezidenti Maya Sandu Ukrayna paytaxtına gəlmişlər. Fransa Prezidenti Emmanuel Makron və Almaniya Kansleri Fridrix Merz isə görüşə videobağlantı vasitəsilə qoşulmuşlar.

Ukrayna Prezidenti Volodimir Zelenski görüşdən sonra keçirilən mətbuat konfransında bildirib: "Bu gün Ukrayna həm hərbi, həm də enerji dəstəyi paketləri aldı... Biz Ukraynaya davamlı dəstəyi müzakirə etdik. Hava hücumundan müdafiə prioritet olaraq qalır".

Görüşdə əsas mövzular qış üçün Patriot sistemi raketlərinin çatdırılması, Ukrayna müdafiə qüvvələri üçün 27 milyard dollarlıq maliyyə çatışmazlığının aradan qaldırılması, Qara dənizin blokdan çıxarılması və Freyja antiballistik raket layihəsinin həyata keçirilməsinin sürətləndirilməsi olub.

Endi Börnhem Britaniyanın Baş naziri kimi ilk xarici səfərinə - Kiyevə əliboş gəlməmişdi. O, Rusiyanın raket zərbələrinə qarşı durmağa kömək edəcək texnologiyaların verilməsinə söz verib. Məsələn, Böyük Britaniya Ukraynaya uzaqmənzilli raket istehsalı texnologiyasını verəcək. London Avropa müdafiə şirkəti MBDA-ya Britaniyanın "Storm Shadow" raketinin fransız versiyası olan SCALP raketinin Britaniya komponentləri haqqında məxfi məlumatları Ukrayna ilə bölüşməyə icazə verib.

Fransa öz növbəsində "İstəklilər koalisiyası"nın genişmiqyaslı birgə hərbi təlimlərinin bu ilin oktyabr və noyabr aylarında keçiriləcəyini açıqlayıb. Bu barədə məlumat verən Prezident Emmanuel Makron təlimləri müharibə bitdikdən sonra Ukrayna üçün təhlükəsizlik zəmanətləri məsələsi ilə əlaqələndirib və deyib: "Təhlükəsizlik zəmanətləri məsələsində qətiyyətimizi və hazırlığımızı nümayiş etdirməyə davam etmək çox vacibdir. Oktyabr və noyabr aylarında keçiriləcək genişmiqyaslı təlimlər koalisiyanın əməliyyat hazırlığını və hərbi əməliyyatların dayandırılmasından sonra hərəkət etmək qabiliyyətini nümayiş etdirəcək. Ukrayna danışıqlara başlamaq qərarına gələrsə, bu, gələcək danışıqların əsas elementidir. Bunun üzərində kollektiv şəkildə işləməyimiz çox vacibdir".

Milli Strateji Araşdırmalar İnstitutunun Xarici Siyasət Tədqiqatları Mərkəzinin baş məsləhətçisi İvan Us hesab edir ki, görüşün əsas nəticəsi təhlükəsizlik zəmanətləri mövzusunun unudulmaması olub. O, "Alman dalğası" radiostansiyasına bildirib: "Ən əsası odur ki, bu məsələ unudulmamışdır. Bəzən elə görünür ki, hamı bu koalisiyanı unudub. Lakin bu görüş məsələnin aktuallığını qoruyub saxladığını göstərir".

"İstəklilər koalisiyası"nın görüşü Ukrayna üçün bəzi praktik nəticələr verdi. Lakin təhlükəsizlik zəmanətləri və ya danışıqlar prosesində Avropanın iştirakı ilə bağlı böyük bir irəliləyişdən danışmaq hələ tezdir". Bu fikri söyləyən "Ukrayna Prizması" analitik mərkəzinin eksperti və Kiyev-Mogila Akademiyasının mühazirəçisi Oleksandr Krayevin dediyinə görə, Ukrayna hələlik görüşdən mümkün olan maksimumu əldə etməyib. Çünki əsas problem iştirakçı ölkələrin bəyanatlardan konkret hərəkətlərə keçmək istəksizliyidir.

Əsas məsələlərdən biri mümkün atəşkəsdən sonra Avropa dövlətlərinin hərbi kontingent göndərmək istəyidir. O.Krayev xatırladıb ki, Birləşmiş Krallıq və Fransa uzun müddətdir bu variantı nəzərdən keçirməyə hazır olduqlarını bildirirlər. Ekspert qeyd edib ki, "İstəklilər koalisiyası"nın hərəkətə keçməyə hazır olacağını gözləyirik. Onun sözlərinə görə, təxminən bir il yarım əvvəl London və Paris atəşkəs razılaşmasından sonra daimi əsasda kontingent göndərmək imkanını müzakirə ediblər. Hətta hərbi əməliyyatların bitməsindən əvvəl onların mövcudluğu ehtimalı da müzakirə olunub. Lakin O.Krayev qeyd edir ki, o vaxtdan bəri bu istiqamətdə heç bir əhəmiyyətli irəliləyiş yoxdur. Buna görə də o, görüşün tam uğurundan danışmağın hələ tez olduğunu düşünür. Ukrayna üçün isə tərəfdaşlarının siyasi bəyanatlarının real təhlükəsizlik mexanizmlərinə çevrilməsi vacibdir.

Sonda qeyd edək ki, Ukrayna Prezidenti Volodimir Zelenski "İstəklilər koalisiyası"nın növbəti iclasının sentyabr ayında keçiriləcəyini bildirib.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

## ALLAH RƏHMƏT ELƏSİN!

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Xələf Xələfova qardaşı

**AYVAZ XƏLƏFLİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Xələf Xələfova qardaşı, geologiya-mineralogiya elmləri doktoru, professor

**AYVAZ XƏLƏFLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Xələf Xələfova qardaşı, geologiya-mineralogiya elmləri doktoru, professor

**AYVAZ XƏLƏFLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Xələf Xələfova qardaşı, geologiya-mineralogiya elmləri doktoru, professor

**AYVAZ XƏLƏFLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3316
Sifariş 1086

Qiyməti 60 qəpik